

**Azərbaycan beynəlxalq həmrəyliyi təbliğ edən mütərəqqi dövlətdir!** 4

# Səs

№ 118 (6559) 6 iyul 2022-ci il. Qiymәti 60 qәpik

# Xəzər:
## mehriban qonşuluq və sülh dənizi



8

# Özlərini aldadanlar
## və axmaq yerinə qoyanlar



7

Ermənistanın hansı yolu tutduğu, ermənilərin nə ağıla qulluq etdiyi, nəinki dünya ictimaiyyəti, hətta bu ölkənin vətəndaşları üçün də müəmmalı olaraq qalmaqdadır, çünki...



**Müdafiə Nazirliyi: "Ermənistanın yaydığı məlumatlar yalandır"** 3



**"Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda diasporumuzun rolu böyükdür"** 5



**Uşaqlarda mədəniyyətin formalaşmasında ailənin rolu nədən ibarətdir?** 7



**$20,000,000**
**Ronaldo təyyarəsini 20 milyon funt sterlinqə satır** 16



# Hicab, yoxsa dəb?
11

**Maska tələbi bərpa olunacaq? - Koronavirus yenidən qayıdır**



**DİQQƏT: Qurban bayramında bu qaydalara əməl edilməlidir**



5

# AZƏRBAYCAN-ABŞ: Dərinləşən tərəfdaşlıq və möhkəmlənən ETİBAR!



## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Monqolustan Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair 2004-cü il mayın 6-da Bakıda imzalanmış Prosedur Müqaviləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Əlavə Prosedur Müqavilə"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Qazax rayonunun Qarapapaq-Çaylı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## İLHAM ƏLİYEV: "Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk"

Azərbaycan Prezidenti İlham Əliyevin 4 İyul - Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə təbrik məktubu ünvanlayıb. Təbrik məktubunda bildirilir: "Otuz ildir ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk".Məktubda vurğulanır ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq ikitərəfli və çoxtərəfli müstəvidə uğurla davam edir. Beynəlxalq təhlükəsizliyin təmin olunması və terrorizmə qarşı mübarizədə uzun müddətdən bəri davam edən birgə fəaliyyətimiz məmnunluq doğurur. Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindəndir."Bu gün Azərbaycan ilə ABŞ arasında bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığımız siyasi əlaqələrimizin də genişlənməsinə şərait yaratmışdır. Ölkələrimizin enerji, təhlükəsizlik və terrorizmə qarşı mübarizədə əməkdaşlığı nümunəvi xarakter daşıyır".

### "BİZ ABŞ-IN ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN NORMALLAŞDIRILMASINDA MÜHÜM ROL OYNAYA BİLƏCƏYİNƏ İNANIRIQ"

Prezidenti İlham Əliyevin 4 İyul - Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə ünvanlandığı təbrik məktubunda Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi ifadə olunur: "Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda biz ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyinə inanırıq. Eyni zamanda tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaətindəyik".

Dövlətimizin başçısı, həmçinin qeyd edib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən basdırılmış minalar burada aparılan bərpa və yenidənqurma işlərinə ən böyük əngəl olaraq qalmaqdadır: "Biz minatəmizləmə işində ABŞ-ın ölkəmizə göstərdiyi yardımı təqdir edirik. Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin dəstəyinə böyük ümidlər bəsləyirik".Prezident İlham Əliyev sonda əmin olduğunu bildirib ki, Azərbaycan ilə ABŞ-ı birləşdirən dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcək.

### 30 İLDƏN ARTIQDIR Kİ, ABŞ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ TANIYAN VƏ DİPLOMATİK ƏLAQƏLƏRİMİZİN QURULDUĞU İLK DÖVLƏTLƏRDƏN BİRİDİR

Bu gün beynəlxalq birliyin ən fəal üzvlərindən birinə çevrilən Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Xüsusilə də, planetimizin super gücü olan Amerika Birləşmiş Ştatları ilə qarşılıqlı inam və etimad əsasında əməkdaşlığı genişlənməkdə davam edir. Xatırladaq ki, 30 ildən artıqdır ki, ABŞ Azərbaycanın müstəqilliyini tanıyan və diplomatik əlaqələrimizin qurulduğu ilk dövlətlərdən biridir. Bu illər ərzində münasibətlərin inkişaf etdirilməsi üçün tərəflər arasında müxtəlif sənədlər imzalanmaqla genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. Azərbaycanın müstəqillik illərində yürütdüyü xarici siyasət kursu dünyanın bütün dövlətləri ilə, eləcə də əsas və nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq qurulmasına yönəlib. Bu, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra iki ölkə arasında əlaqələr daha da güclənib, yüksək səviyyəli qarşılıqlı səfərlər və beynəlxalq təşkilatlar çərçivəsində görüşlər baş tutub. Bu gün isə bu siyasətin uğurlu davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin son 19 illik prezidentlik fəaliyyəti müddətində müdrik liderliyi ilə çağdaş dünya birliyində uğurlu dövlət idarəçiliyi modeli kimi qəbul edilir və ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmətə və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi kurs olaraq son illərdə ölkəmizə böyük hörmət və nüfuz qazandırıb, dünyanın həm Qərb, həm də Şərq istiqamətləri üzrə çox geniş siyasi, iqtisadi və humanitar əlaqələr qurulub. Təsadüfi deyil ki, ABŞ Prezidenti Cozef Bayden Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərməsi də Azərbaycanın həyata keçirdiyi siyasi kursun və iki ölkə prezidentləri arasında əlaqələrin möhkəm olmasının təsdiqidir. Və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının 4 İyul - Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə ünvanlandığı təbrik məktubu hər iki ölənin maraqlarının, xalqların rifahı naminə əhəmiyyətli potensiala malik əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün birgə səylər göstərməyin vacib amillərindəndir. Onu da vurğulamaq lazımdır ki, münasibətlərin inkişaf etdirilməsi üçün tərəflər arasında müxtəlif sənədlər imzalanmaqla genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. Azərbaycanın bu gün bir çox dövlətlər tərəfindən uğurlu layihə kimi qiymətləndirilən enerji şaxələnməsi siyasətinin dəstəklənməsində və həyata keçirilməsində ABŞ-ın rolu danılmazdır. Azərbaycanla ABŞ arasında enerji sahəsində 1994-cü ildə bağlanan "Əsrin müqaviləsi"ndə ABŞ şirkətlərinin yer alması ilə başlanan əməkdaşlıq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisində fəal iştirakı ilə davam edib. ABŞ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində də siyasətini dəstəkləyir. Azərbaycan Cənubi Qafqazda ABŞ-ın ən böyük ticarət tərəfdaşıdır, regionda birbaşa xarici sərmayələr ən çox Azərbaycana yatırılıb, Azərbaycanda 300-dən çox Amerika şirkəti qeydiyyatdan keçib. Güclü dövlət o zaman güclü və qüdrətli, ən əsası sözün əsl mənasında müstəqil olur ki, onun gələcəyini düşünən, atdığı hər addımda dövlət maraqlarını öndə saxlayan Lideri vardır. Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, sözünün imzası qədər əhəmiyyəti olan Azərbaycan Prezidenti İlham Əliyev kimi 44 gün ərzində 30 illik torpaq həsrətinə son qoyan Qalib Lideri, Pezidenti var.

### CO BAYDEN: "AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI AZƏRBAYCANIN SADİQ TƏRƏFDAŞI OLMAQDA DAVAM EDİR"

ABŞ Prezidentinin Azərbaycanın Müstəqillik Günü ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev cənablarına ünvanladığı təbrik məçktubunda bildirir ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində əməkdaşlıq öz bəhrəsini verir, Azərbaycanla əməkdaşlığı bundan sonrakı dövrdə də davam edəcək.Bir sözlə, bütün bu sadalanan faktlar bir daha onu göstərir ki, Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq səviyyəsindədir. Hər iki dövlət regional təhlükəsizlik, enerji və iqtisadi inkişaf, demokratik islahatlar və insan hüquqları kimi sahələrdə güclü tərəfdaşlıq münasibətlərindən faydalanır. Və ABŞ-ın Azərbaycanla əlaqələrə yüksək dəyər verməsi, əlbəttə, Prezident İlham Əliyevin regionda və dünyada sülhün təmin olunması, əlaqələrin qurulması, iqtisadi imkanlardan güc, silah kimi istifadə edilən enerji resurslarının ədalətli bölgüsü və əlçatanlığı sahəsində həyata keçirdiyi böyük siyasətin nəticəsi olmaqla, həm də Azərbaycan dövlətinə və onun müdrik lideri Prezident İlham Əliyevin prinsipial və ədalətli siyasətinə verdiyi böyük dəyərdir.

**RƏFİQƏ HÜSEYNOVA**





# İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işləri sürətləndirilir

*Baş nazir Əli Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə səfər ediblər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyulun 5-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət heyətin işğaldan azad olunmuş ərazilərə növbəti səfəri baş tutub.**

Baş nazir və Prezident Administrasiyasının rəhbərinin başçılıq etdiyi heyət əvvəlcə Tərtər rayonunun Suqovuşan qəsəbəsində Vətən müharibəsi şəhidlərinin şərəfinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə əklil qoyulub.

Daha sonra "Suqovuşan-1" Su Elektrik Stansiyası və Suqovuşan su anbarına baxış keçirilib, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev və Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov tərəfindən Azərbaycan Respublikası Prezidentinin tapşırıqları ilə bağlı görülən işlər barədə məlumatlar verilib. Daha sonra Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova Turizm İnkişaf Konsepsiyası ilə bağlı görülən işlər barədə məruzə edib.

Heyət Suqovuşan qəsəbəsində turizm təyinatlı fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış olub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə məlumat verib.

Heyətin üzvləri, həmçinin Tərtər rayonunun işğaldan azad edilən Talış kəndində olublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev kəndin hazırlanan layihəsi barədə, Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova kəndin dövlət başçısının son tapşırıqlarına uyğun olaraq tərtib olunan Turizm İnkişaf Konsepsiyası barədə məlumat veriblər.



Daha sonra Ağdam istiqamətində yola düşən heyət üzvləri Bərdə-Ağdam dəmir yolunun, eləcə də Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yollarının tikintisi işləri ilə tanış olublar, görülən işlər barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Hicran Valehov və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov məruzələr ediblər.

Şahbulaq qalasında görülən işlərlə tanışlıq zamanı Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova tərəfindən Şahbulaq Turizm Kompleksinin layihəsi barədə məlumat verilib. Daha sonra ANAMA-nın Ağdam mobil sahə düşərgəsinə yola düşən iştirakçılar düşərgə və minatəmizləmə işləri ilə tanış olublar.

Ağdam şəhəri ərazisində heyət üzvləri "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinə baxış keçirib, daha sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov Ağdam Sənaye Parkında görülmüş işlər barədə heyətə ətraflı məlumat verib. Heyət üzvləri, həmçinin Ağdamda inşa olunan yaşayış kompleksinin tikinti işləri ilə də tanış olublar. Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Ağdam Cümə məscidində görülən işlər barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Fondun icraçı direktoru Anar Ələkbərov ətraflı məlumat verib. Daha sonra təhsil naziri Emin Əmrullayev heyəti Ağdamda 1 saylı tam orta məktəbdə aparılan tikinti işlərinin gedişatı ilə tanış edib.

Səfərin sonunda Baş nazir və Prezident Administrasiyasının rəhbərinin başçılıq etdiyi heyət Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

Səfər müddətində baxış keçirilən bütün yenidənqurma və bərpa işlərinin, habelə infrastruktur layihələrinin Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun yerinə yetirilməsi istiqamətində aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər və tövsiyələr verilib.

# "Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi ilə fəaliyyətinin keyfiyyətcə yeni - daha səmərəli mərhələsini yaşayır"

**"Əl Balad", "Əxbar Əl Yom" qəzetlərində və Ərəb Parlamentinin telekanalında Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı haqqında müsahibə və məqalələr yayımlanıb.**



Belə ki, Ərəb Parlamentinin vitse-spikeri Əbdül Kərim Qureşi qəzetlərə müsahibəsində "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransının ərəb ölkələrinin parlamentləri üçün aktual məsələlərin - Yəmən, Suriya, Livan, Fələstin və Liviyadakı problemlərin həlli yollarının müzakirə olunduğu mühüm beynəlxalq platforma olduğunu deyib. Onun sözlərinə görə, Ərəb Parlamentinin spikeri Adel bin Əbdül Rəhman Əl-Asuminin tədbirdəki çıxışında da qeyd olunub ki, Qoşulmama Hərəkatı Yaxın Şərqdə mövcud olan silahlı münaqişələrin həllində əhəmiyyətli rol oynaya bilər.

Bakı konfransında Ərəb Parlamenti nümayəndə heyətinin tərkibinə daxil olmuş Şaalan Əl-Kərim də yüksək səviyyədə təşkil olunmuş tədbirin qlobal və ərəb dünyası üçün əhəmiyyətindən danışıb. O bildirib ki, hazırda dünyada gedən mürəkkəb proseslər, o cümlədən müharibə və humanitar fəlakətlər müstəqil siyasət yürüdən ölkələrin beynəlxalq arenada daha fəal olmasını tələb edir. Ərəb parlamentari qeyd edib ki, Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi ilə fəaliyyətinin keyfiyyətcə yeni - daha səmərəli mərhələsini yaşayır.

## Müdafiə Nazirliyi:
# "Ermənistanın yaydığı məlumatlar yalandır"



Azərbaycan Ordusunun bölmələri tərəfindən guya dövlət sərhədi istiqamətində qarşı tərəfin atəşə tutulması ilə bağlı Ermənistanın yaydığı məlumatlar yalandır, reallığa uyğun deyil.

Bu barədə Müdafiə Nazirliyindən AZƏRTAC-a məlumat verilib. "Bildiririk ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə atəş açılmayıb. Bu qarşı tərəfin növbəti dezinformasiyasıdır", - deyə məlumatda vurğulanıb.

# Azərbaycan beynəlxalq həmrəyliyi təbliğ edən mütərəqqi dövlətdir!



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən ardıcıl və səmərəli tədbirlər nəticəsində ölkə vətəndaşlarının COVID-19 pandemiyası - bu təhlükəli virusa yoluxma riskini minimuma endirmək mümkün oldu. "Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik", - deyə dövlət başçısı çıxışlarının birində bildirmişdi. Ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı, oraya ilkin olaraq, büdcədən 20 milyon manat vəsait ayrıldı. "Yeni Klinika" istifadəyə verildi, modul tipli xəstəxanaların tikilməsinə vəsait ayrıldı və Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində modul tipli xəstəxana kompleksləri quraşdırıldı. İnsanların həyat səviyyəsinin yüksəldilməsi və maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi işlər, verdiyi qərarlar, pandemiya dövründə işsiz şəxslərə ayırdığı 190 manat birdəfəlik müavinət, maddi yardımlar, sosial sahədə dövlət tərəfindən göstərilən dəstək dövlət başçısinin hər bir vətəndaşin Prezidenti olduğunu bir daha göstərdi.

## "AZƏRBAYCAN BEYNƏLXALQ ARENADA BU XƏSTƏLİKLƏ MÜBARİZƏDƏ ÖZ ROLUNU FƏAL OYNAYAN ÖLKƏLƏRDƏN BİRİ İDİ"

Bəşəriyyətin bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri isə birlik və həmrəylikdir. Dünyanı cənginə alan pandemiya insanların həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər, mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb. COVID-19 pandemiyası şəraitində qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac var. Ölkə rəhbərliyi dünyanı əhatə edən koronavirusla mübarizədə həm yerli, həm də beynəlxalq səviyyədə qətiyyətli təşəbbüslər irəli sürdü. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının tarixdə ilk dəfə onlayn formada Zirvə görüşünün keçirilməsi, Qoşulmama Hərəkatının Zirvə görüşündə Prezident İlham Əliyev tərəfindən BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının təşkil edilməsi təşəbbüsünün irəli sürülməsi və bu təşəbbüsün 130 ölkə tərəfindən dəstəklənməsi birmənalı olaraq Azərbaycanın və dövlətimizin başçısının beynəlxalq miqyasda nüfuzunu göstərmiş oldu. BMT-nin üzvü olan dövlətlərin Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəkləməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan inamin daha bir ifadəsi idi.

Cari ilin 30 iyun tarixində paytaxt Bakıda keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirib ki, Azərbaycan beynəlxalq arenada bu xəstəliklə mübarizədə öz rolunu fəal oynayan ölkələrdən biri idi: "Biz Qoşulmama Hərəkatının onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsü ilə çıxış etdik, onu 2020-ci ilin may ayında keçirdik və bu, pandemiya ilə mübarizə ilə bağlı yaxşılaşmada səylərimizin Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən səfərbər edilməsi üçün ilkin addımlardan biri idi. Bunun nəticəsində biz 2020-ci ilin dekabr ayında uğurla keçirilmiş, COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT Baş Assambleyanın xüsusi sessiyasının çağırılması ilə bağlı üzv dövlətlər tərəfindən dəstəklənmiş təşəbbüsü irəli sürdük. Bizim səylərimiz təkcə həmrəyliyin gücləndirilməsi və dəstəyin təmin edilməsinə yönəlməmişdir, eyni zamanda, ölkələrə dəstək, tibbi və humanitar yardımla bağlı bizim məlumat bazasından istifadə etməyə başlamış Ümumdünya Səhiyyə Təşkilatı üçün də faydalı oldu".

## "BİZİM PEYVƏND MİLLƏTÇİLİYİNƏ QARŞI MÜBARİZƏMİZ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI TƏRƏFİNDƏN DƏ DƏSTƏKLƏNMİŞDİR"

Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib, Dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib. Azərbaycan peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan, pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib. Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi də mühüm əhəmiyyət kəsb edir. Cənab Prezident çıxışında "Biz peyvənd millətçiliyinə qarşı açıq şəkildə etirazını bildirən ölkələrdən biri idik", - deyərək diqqəqə çatdırıb ki, pandemiyanın ilk günləri və aylarında bəzi zəngin ölkələr onlara lazım olduğundan ola bilsin üç və ya dörd dəfə çox peyvəndləri tədarük edir və bununla da digər ölkələri peyvəndlərə çıxışdan məhrum edirdi: "Biz hamımız digər ölkələrin çıxılmaz vəziyyətdə olduğu bir vaxtda zəngin ölkələrin peyvəndlərin mütləq əksəriyyətindən istifadə etdiyinin şahidi olduq. Buna görə də bizim peyvənd millətçiliyinə qarşı mübarizəmiz Birləşmiş Millətlər Təşkilatı tərəfindən də dəstəklənmişdir. Hesab edirəm ki, bu da vaksinlərin ədalətli paylanılmasına mühüm təsir göstərmişdir".

## QOŞULMAMA HƏRƏKATININ SƏDRİ QİSMİNDƏ AZƏRBAYCANIN TƏŞƏBBÜSÜ İLƏ QH ÜZVLƏRİ ADINDAN İRƏLİ SÜRÜLMÜŞ QƏTNAMƏ BMT-YƏ ÜZV DÖVLƏTLƏR TƏRƏFİNDƏN QƏBUL EDİLDİ

Beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin COVİD-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsi və təşəbbüsləri yüksək qiymətləndirilir. 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayaraq, Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdi. Noyabrın 18-də isə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edildi. 171 ölkə qətnamənin lehinə səs verdi. Heç bir ölkə qətnamənin əleyhinə səs vermədi. Qətnaməyə münasibətdə bitərəf qalmış 7 ölkədən birinin regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistan oldu. Qeyd etmək lazımdır ki, bu, Ermənistanın bütün məsələlərə, hətta humanitar məsələlərdə də Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının nümunəsi idi.

Dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Azərbaycan, Türkiyə və İran regionun ən güclü dövlətlərindən biridir"

"Tehranda Türkiyə, İran, Azərbaycan xarici işlər nazirləri görüşəcək və görüşün çox böyük əhəmiyyəti var. Bu gün Azərbaycan, Türkiyə və İran regionun ən güclü dövlətlərindən biridir". Bu sözləri SİA-ya



açıqlamasında deputat Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, əməkdaşlıq üçün çox ciddi və geniş imkanlar var: "Azərbaycan davamlı olaraq altılı və üçlü formatda əməkdaşlığın güclənməsinə səylər göstərir. Bu baxımdan XİN rəhbərlərinin görüşməsi çox önəmlidir. Bu, əlaqələrin və mövcud əməkdaşlıq perspektivinin güclənməsinə öz töhfəsini verəcək".

Deputat sözlərinə belə davam edib: "Bu həm də qarşımızda qoyduğumuz məqsədlərə çatmaq, bölgədə yaratdığımız reallığın gücləndirilməsi üçün də əlavə imkanlar yaradacaq. Bu gün Azərbaycan bu istiqamətdə addımlar atır. Hesab edirəm ki, bu çox önəmli mühüm bir addımdır".

Ayşən Vəli

## Səfir: "Ukraynaya göstərdiyi humanitar yardıma görə dost Azərbaycana dərin minnətdarlığımı bildirirəm"

Şadam ki, Azərbaycanda növbəti görüşümüz burada - Bakıdakı aeroportda baş tutub. Azərbaycan buradan Ukraynaya növbəti humanitar yardım göndərir. Ukraynaya bu mühüm humanitar yardımın göstərilməsinə görə dost Azərbaycana, xalqınıza dərin minnətdarlığımı bildirirəm.

Bu sözləri Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski Bakıdan humanitar yardımın ölkəsinə yola salınması mərasimində jurnalistlərə müsahibəsində deyib. "Müharibənin başlamasından indiyədək Azərbaycan tərəfindən Ukraynaya 20 milyon ABŞ dolları dəyərində 1,5 min ton vacib humanitar yardım göndərilib. Buraya müxtəlif dərmanlar, tibbi avadanlıq daxildir", - deyə diplomat qeyd edib.



V.Kanevski Sumqayıt Şəhər İcra Hakimiyyətinin qardaşlaşmış şəhəri olan Çerkassıya yardım göndərməsinə görə təşəkkürünü bildirərək deyib: "Bu təşəbbüs Azərbaycanın Ukraynaya aktiv şəkildə yardım göndərməyə başlayan digər şəhərlərinə nümunə olub. Bu, Ukrayna və Azərbaycan xalqları arasında əsl dostluq jestidir. Biz Ukrayna və Azərbaycan xalqları arasındakı dostluğun sarsılmaz olduğuna inanırıq".

# İrəvan staqnasiya prosesini davam etdirərsə (!)

## Bakının birtərəfli sərt və qətiyyətli addım atmasından başqa yolu qalmır

**Azərbaycan xalqı dəfələrlə, eləcə də 44 günlük Vətən müharibəsindən sonra da Ermənistan rəhbərliyi və millətçi ermənilər tərəfindən həyasız davranışların şahidinə çevrilib. Daha dəqiq desək, bu kimi halda onilliklər boyu davam edib, indi də bu cürdür.**

Lakin sırf erməni məkrinə hesablanan bu ənənəvi həyasızlıq prosesi yalnız Azərbaycan xalqına və dövlətinə qarşı deyil, eyni zamanda digər qonşulara, özəlliklə uzun illər Ermənistanın ayaqda qalmasına səbəb olan Rusiyaya qarşı da tətbiq olunmaqdadır. Məsələn, 44 günlük müharibə zamanı Rusiyanın Ermənistana dəstək göstərməməsi ətrafındakı iddialar bu günün özündə belə erməni hakimiyyətinin rəhbərliyində, habelə ictimai rəyində çarx kimi fırladılmaqdadır. Görünür, erməni hakimiyyətinin və ictimai rəyinin bu məsələdə unutmaq xəstəlikləri eynidir.

**Nə qədər ki, Rusiya və Qərb erməni həmkarlarına xatırlatmalar etməzlərsə, bundan sonra da Azərbaycan tərəfinin sərt reaksiyaları ilə qarşı-qarşıya qalmış olacaqlar!**

Beynəlxalq aləm və hüquq da sübut edirdi ki, müharibə Azərbaycanın ərazisində gedib, belə ki, Ermənistan onilliklər boyu Azərbaycanın ərazilərini işğala məruz qoymuşdu. Paralel olaraq BMT-nin bütün qətnamələri və s. sənədlər də həmin reallığı vurğulayırdı. Lakin ən əsası - Ermənistanın baş naziri dünyanın gözü qarşısında üçtərəfli bəyanata imza atdı və orada qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycanın ərazilərindən çıxarılması öhdəliyini götürdü. Üstəlik, nə qədər ki, Rusiya və Qərb məmurları, ekspertləri, konfliktoloqları erməni həmkarlarına bu haqda xatırlatmalar etməzlərsə, onlar bundan sonra da Azərbaycan tərəfinin sərt reaksiyaları ilə qarşı-qarşıya qalmış olacaqlar!



Sərhədlərin delimitasiyası və demarkasiyası məsələsinə gəlincə, Ermənistan bu məsələdə də özünü bakirə, günahsız qızlar kimi aparır. Halbuki, həmin Ermənistan 30 ilə yaxın dövr ərzində Azərbaycana qarşı təcavüzkar siyasəti aparıb, istila və işğalla məşğul olub. Bu reallığı da bütün dünya qəbul edirdi!

Əgər bu gün Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmirsə, Azərbaycan haqlı olaraq sərhədlərin dəqiqləşdirilməsi prosesini yavaş-yavaş da olsa həyata keçirir, üstəlik beynəlxalq ictimaiyyət də bunu yaxşı bilir. Uzağı yerdə qalan məsələlərin sülh yolu ilə həlli çağırışları edilir.

**Bakı yetərincə konstruktivlik göstərib!**

Erməni tərəfinin Rusiyanın onlara köməklik göstərməməsi ilə bağlı ittiham etməsinə gəlincə isə, Rusiyanın bu məsələyə hər hansı aidiyyatı yoxdur. Misal üçün, indinin özündə də faktlar var ki, Rusiya müharibə vaxtı Ermənistanı bacardığı qədər silah-sursatlarla təmin edirdi. İndi isə erməni rəhbərliyi özünə yaxın KİV-lər və sosial şəbəkələr vasitəsi ilə 2020-ci ildə rusların göstərdikləri yarımları sıfırlamağa çalışırlar. Artıq rusiyalı məmurlar və ekspertlərə həmin məsələləri də xatırlatmağın vaxtı çatıb ki, yatmasınlar, oyansınlar və ermənilərin "çoxsağollarından" nəticə hasil etsinlər...

Ermənistan rəhbərliyi isə hay-şivən qoparıb yaxa cırmaqdansa Azərbaycanla konstruktiv mövqedə davranıb sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı üzərinə düşən öhdəlikləri həyata keçirməlidir.

Başqa tərəfdən, erməni rəhbərliyi müharibədən sonra Azərbaycana qarşı təxribatlar törətməyə göndərilən və nəticədə ələ keçirilən diversantlarının azadlığa buraxılmaları üçün nə etməli olduğunu da yaxşı dərk edir. Bunun üçün isə üçtərəfli bəyanatda tələb olunan şərtlərə əməl etməyin zamanıdır. Bakı yetərincə konstruktivlik nümayiş etdirib.

**Təəssüf ki, erməni siyasi həyasızlığı davam edir**

İrəvan unutmamalıdır ki, müharibədən sonra ötən 1,5 ildə Azərbaycan tərəfindən Ermənistana kifayət qədər diversantlar qaytarılıb, Gorus-Qafan yolu 6 ay rahatlıqla açıq olub, erməni zəvvarları isə Xudavəng monastırını ziyarət etmək imkanlarını əldə ediblər - hamısı Azərbaycanın xoşməramlı və sülhpərvər, eləcə də humanizm prinsiplərini təmin etməsi sayəsində!

Təəssüf ki, erməni siyasi həyasızlığı davam edir və görünür Xankəndi, Zəngəzur məsələlərində yenə də belə davam edəcəyi halda, daha dəqiq desək, staqnasiya (durğunluq) prosesi gedəcəksə, Azərbaycanın birtərəfli qəti və sərt addımlar atmasından başqa yolu da qalmayacaq!

*Rövşən RƏSULOV*

# "Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda diasporumuzun rolu böyükdür"

**"Azərbaycan diasporu dünyanın gənc diasporalarından biridir. Son illər xüsusilə də rəhbərlik dəyişəndən sonra xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesi baş verdi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov bildirib.**




Onun sözlərinə görə, diasporumuzun fəaliyyəti göz önündədir: "O günü-gündən fəallaşır, inkişaf edir. Son illər xarici ölkələrdə, həmçinin ölkəmizdə baş verən hadisələrlə bağlı, 44 günlük müharibədən sonrakı Qələbəmizlə bağlı dünyanın müxtəlif ölkəkərində fəaliyyət göstərən diasporumuzun uğuru sevindiricidir. Kifayət qədər fəal işləyir. Bu da Azərbaycandakı bu qurumlara rəhbərlik edən komitənin müsbət fəaliyyətinin nəticəsidir. Ancaq bununla kifayətlənmək olmaz. Çünki bizim əksimizə fəaliyyət göstərən müxtəlif təşkilatlar, qurumlar, cəmiyyətlər var, xüsusilə də Ermənistan tərəfindən idarə edilən diasporalar, lobbilər çoxdur. Bunların təcrübələri də çoxdur. Onlarla mübarizə aparmaq, onlara qalib gəlmək, cavab vermək çox vacib şərtlərdən biridir. Eyni zamanda Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda, xarici ölkələrdə Azərbaycanın layiqli şəkildə təmsil olunmasında Azərbaycan diasporunun rolu böyükdür.

Azərbaycan dövlətinin xarici siyasətinin düzgün istiqamətdə xarici ölkələrdə təbliğ olunması diasporamızın qarşısında duran önəmli məsələlərdəndir. Arzu edirəm ki, dünya ölkələrində fəaliyyət göstərən diasporalarımız daha da inkişaf eləsin, güclü təşkilatlara çevrilsin və xalqımızı, dövlətimizi, millətimizi ləyaqətlə təmsil etsin".

*Abutel İlhamqızı*

# DİQQƏT: Qurban bayramında bu qaydalara əməl edilməlidir

"Qurban bayramı İslam dinində olan ən böyük və müqəddəs bayramlardan biridir. Müsəlman ölkələrində də rəsmi olaraq bu bayram qeyd olunur". Bu fikirləri SİA-ya din xadimi Mircəfər Eyyubov bildirib.



Onun sözlərinə görə, qurban Allaha yaxınlaşmaq deməkdir: "İnsanlar Allaha yaxınlaşmaq üçün nəsə qurban verirlər. İbrahim (ə) və İsmayıl (ə) dövründən qalan Qurban bayramını İslam dini qoruyub saxlayır. Həcc ziyarətinə gedənlər üçün qurban kəsmək, yəni qoyn, keçi, dana və ya dəvə kəsmək vacib sayılır. Kəsməmək olmaz. Lakin Həcc ziyarətinə getməyən insanlara cavib deyil, müstəhəbdir. Yəni qurban kəsməsələr günah olmaz, amma bayram ənənəsini yaşatmaq üçün bir növ dini dəyər kimi icra etmək tövsiyyə olunur. Qurbanı kəsib bir hissəsini özünə digər hissələrini isə qohum əqrabaya, üçüncü hissəsini isə yoxsullara paylamaq savabdır.

Din alimlərinin tövsiyyəsi budur ki, qurban kəsilirsə qoyun 7 aydan böyük, keçi, inək olarsa 2 yaşdan böyük, dəvə isə 5 yaşdan böyük olmalıdır. Qurbanın kəsilmə prosesi uşaqların gözü qabağında olmasa daha yaxşı olar. Bəzi adətlər yığışdırılmalıdır. Məsəl üçün qurban qanını uşaqların alnına sürməkdən çəkinmək lazımdır. Bunlar doğru əməllər deyil. Mümkün qədər təmizliyə riayət olunmalıdır. Küçələrdə qurban kəsərkən etik qaydalara əməl etmək lazımdır. Qurbanlıq üçn satılan heyvanların qiymətinin baha olması dini baxımdan doğu hesab olunmur. Çünki Qurban bayramı kiminsə pul qazanması üçün bir vasitə olmamalıdır. Bıcaq iti olmalıdır ki, heyvana əziyyət verməsin. Kəsilməzdən öncə heyvana su verilməlidir. Heyvanın canı çıxmamış başı bədənindən ayrılmamalıdır. Bu insanlarda daşqəlbilik yaradır. Bu haram əməl sayılır".

*Abutel İlhamqızı*

# Qazaxıstan da Rusiyadan qaçır



Dünya sanki yenidən formalaşır. Söhbət ölkələrdən və onların sərhədlərindən, dövlət və xalqın maraqlarından gedir. Köhnə dostlar yenisi ilə əvəzlənir, yaxud düşmənlər dostlaşır, bir sözlə nələrin baş verdiyini proqnozlaşdırmaq bir az çətinləşib. Postsovet məkanında əvvəllər adət etdiyimiz "mərkəz"dən qaçmaq artıq geridönməz xarakter alıb. Bəs bunun günahı kimdə və nədədir? Müasir yanaşma belədir ki, özünə nə qədər dost, arxa qazansan bir o qədər özününün təhlükəsizliyini təmin etmiş olarsan. 70 il sovetlər dönəmində və ondan da əvvəl çar Rusiyası dövründə vahid ölkənin vətəndaşları olmuşuq, iki dünya müharibəsini yola vermişik, bir-birimizi sınamışıq, yaxşı və pis günlərimizdə bir yerdə olmuşuq. Belə olan halda parçalanmada günah daha çox kimin ayağına yazılmalıdır, müstəqil ölkə həvəsinə düşənlərin, yoxsa 15 respublikanı zorla bir çətir altına toplayan çar və proletariat Rusiyasının? Bəli, insanlarda olduğu kimi, dövlətlərdə də o vaxt ayrılmaq istəyi yaranır ki, əzilmək, hüquqlarının tapdalanmasına yol vermək, milli və dini ayrıseçkiliklə üzləşmək istəmir, birlik saxta, yalnız bir tərəfin maraqları üzərində qurulur. SSRİ-də olduğu kimi.

Burada mərkəzçi əlbəttə, Rusiya idi. Həm çarlıq, həm də proletariat diktaturası dönəmində məqsəd eyni idi, nə olur-olsun Moskvanı yaşatmaq. 14 respublika Rusiyanın zirehi rolunda çıxış edirdi. Sovetlərin düşməni müttəfiq respublikalarla, sosialist düşərgəsindən olan dövlətlərlə həmsərhəd ola bilərdi, amma Rusiya ilə yox. Bu, Moskvanın siyasətinə uyğun gəlmirdi. İndi bildinizmi Rusiya NATO-nun genişlənməsinin, sərhədlərinə yaxınlaşmasının niyə əlehinədir? Sadəcə, Rusiya NATO-dan nəinki qorxur, həm də çox qorxur.



14 respublikadan 3-ü - Baltikyanı ölkələr çox sürətlə həm Avropa İttifaqına, həm də NATO-ya üzv qəbul edildilər. Moldova və Ukrayna sakitliklə bu məsələni həll etməyə çalışdılar, amma Gürcüstan daha tez Avropaya inteqrasiya etmək, Alyansa üzv olmaq istədi. Amma Rusiya Cənubi Osetiya üzərindən Tbilisinin "dərsini" verdi. Moldova loyal siyasətini davam etdirsə də Ukrayna siyasətində Moskvaya "kafa tutmaq" siyasətini nəhayət büruzə verdi və...

Orta Asiya respublikalarında da ara-sıra Rusiyanın təsir dairəsindən çıxaraq sərbəst siyasət yürütmək cəhdləri də bu regionda uzun illər əvvəldən öz yerini kifayət qədər möhkəmləndirmiş KQB-nin (müasir FTX) əli ilə fiaskoya uğradıldı. Başı Ukraynada müharibəyə qarışmış Rusiyanın diqqətindən yayınan bəzi Orta Asiya respublikaları Moskvanın təsir dairəsindən qurtulmağa can atırlar. Hər dəfəsində də kənar qüvvələrin görünməyən, lakin hiss edilən əli hadisələri idarə edir, xoşagəlməz, planlaşdırılmayan proseslərin yaşanmasına rəvac verir.

Bu gün Mərkəzi Asiya Rusiya, Çin, Türkiyə və ABŞ arasında qarşıdurma meydanına çevrilib. Moskva postsovet məkanındakı siyasətinə yenidən baxmaq və Pekinlə fəal qarşılıqlı əlaqədə olmaq niyyətini gizlətmir. Bu, Rusiyaya Mərkəzi Asiyada Qərb ekspansiyasını məhdudlaşdırmağa və öz təhlükəsizliyini təmin etməyə kömək edə bilər.

Mərkəzi Asiya getdikcə daha çox, orada obyektiv maraqları olan qonşusu Çin və "soyuq müharibə"də qalib gəldikdən sonra regionda nüfuzunu gücləndirmək istəyən ABŞ arasında hər gün daha çox qarşıdurma meydanına çevrilir. Rusiyanın məsuliyyət zonasında olan respublikalar SSRİ-nin dağılmasını yalnız Moskvadan müstəqillik kimi şərh edirdilər. Bu da öz növbəsində onları digər güc mərkəzlərinə - Pekinə, Vaşinqtona və Ankaraya arxalanmağa məcbur edirdi. Buna baxmayaraq, onlar 2022-ci ilin yanvarında Qazaxıstanda və 1990-cı illərin əvvəllərində Tacikistanda olduğu kimi ekstremal hallarda kömək üçün yenə də Rusiyaya müraciət etməli oldular.

Bəzi analitiklərin fikrincə, Kremlin Sovet İttifaqının tərkibində olan ölkələrə qeyri-ciddi münasibəti, keçmiş sovet respublikaları rəhbərliyinin strateji uzaqgörənliyi Mərkəzi Asiya ölkələrində qlobal oyunçular arasında qarşıdurma meydanına çevrilməsinə, formal bərabərlik prinsipinin üstünlüyü Rusiyanın postsovet məkanında təsirini əhəmiyyətli dərəcədə itirməsinə səbəb olub.

Keçmiş sovet respublikaları rəsmi dostluq və Rusiyanın himayəsi altında yaradılan inteqrasiya birliklərində - Avrasiya İqtisadi İttifaqı (AİI) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirak müqabilində Moskvaya onlara siyasi və iqtisadi üstünlüklər verməyə öyrəşiblər. Reallıqda onlar postsovet məkanında istənilən inteqrasiya platformasından regional və yaxud beynəlxalq tənliklərdən asılı olaraq dəyişən milli maraqlarını inkişaf etdirmək üçün istifadə edirlər.

Bunun bariz nümunəsi Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevin Moskvaya səfəri zamanı davranışıdır. O, Rusiyaya qarşı sanksiyalara əməl edəcəyinə söz verib ki, bu da artıq rəsmi olaraq Qazaxıstanı Rusiyaya dost olmayan dövlət vəziyyətinə salır. Rəsmilərin fikrincə, Qərbin Rusiyaya qarşı hibrid müharibəsini, sanksiyaları dəstəkləyən istənilən ölkə Moskva üçün qeyri-dost adlandırılır. Lakin Rusiya rəsmiləri tərəfindən Qazaxıstanı



açıq şəkildə dost olmayan dövlət kimi tanıması məsələni bir az da qəlizləşdirir. Hətta açıq şəkildə Kiyevyönlü mövqe tutan NATO üzvü olan Türkiyə də Rusiyaya qarşı sanksiyalara dəstək verməyib.

Qazaxıstan prezidenti Almatıdakı etirazları yatırmaq üçün Rusiya və KTMT-dən kömək istəməsindən sonra ritorikasını dəyişib. Cəmi bir neçə ay əvvəl NATO-nun analoqu sayılan KTMT-nin "fəaliyyəti" sayəsində ölkədə sakitlik bərqərar oldu. Bunun ardınca KTMT missiyasının uğuru və sülhməramlı qüvvələrin Qazaxıstandan çıxarılması barədə sürətli məlumat verildi.

Qazaxıstanda Rusiyanın Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyatla bağlı müxtəlif fikirlər var. Səbəblər ondan ibarətdir ki, BMT Nizamnaməsinin iki prinsipi - bütövlük və öz müqəddəratını təyinetmə prinsipləri bir-biri ilə ziddiyyət təşkil edir, buna görə də ərazi məsələlərinin fərqli başa düşülməsidir. Bəziləri ərazi bütövlüyünün müqəddəs olduğunu, bəziləri isə konkret ölkənin tərkibində olan istənilən xalqın öz dövlətini yaratmaq hüququna malik olduğunu iddia edir. Hesablanıb ki, xalqların öz müqəddəratını təyin etmək hüququ bütün dünyada reallaşarsa, indi BMT-yə üzv olan 193 ölkə əvəzinə 600-dən çox ölkə olacaq. Təbii ki, bu, xaosa gətirib çıxaracaq. Bunu Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında müzakirələr zamanı deyib. "Bu səbəbdən biz nə Tayvanı, nə Kosovonu, nə Cənubi Osetiyanı, nə də Abxaziyanı tanımırıq. Və görünür, bu prinsip Luqansk və Donetsk kimi kvazi-dövlət ərazilərinə də şamil olunacaq", deyə Tokayev əlavə edib.

Rusiya rəsmiləri vaxtaşırı keçmiş sovet respublikalarının ərazilərinin Rusiya Federasiyasına qaytarılmasını tələb edir ki, bu da Qazaxıstan və digər dövlətlərin narahatlığına səbəb olur. Etnik ruslar bəzi ölkələrdə azlıq təşkil edir (əhalinin 22%-i) və həmin ölkələrin rəhbərliyi Krım, Ukraynanın şərqi və Cənubi Osetiya ssenarilərinin təkrarlanmasından narahatdırlar.

Qərblə müharibə aparan Rusiyada belə başa düşürlər ki, Moskva siyasi, iqtisadi və hərbi inteqrasiya strukturlarına və onların postsovet məkanında fəaliyyətinə yenidən baxmalı, həmçinin Pekinlə fəal qarşılıqlı fəaliyyət göstərməlidir. Bu, ona Qərbin Mərkəzi Asiyada ekspansiyasını məhdudlaşdırmağa, Əfqanıstandan gələn təhlükələrin qarşısını almağa və təhlükəsizliyini təmin etməyə kömək edəcək.

Amma Rusiyanı idarə edənlərdə zorla ittifaqın mümkünsüzlüyünü qavramaq problemləri var. Keçmiş, yaxud gələcək dostlarla yalnız səmimi münasibətlər ittifaqın, birliyin yaranmasında böyük rol oynaya bilər. Əks münasibət əks effekt verə bilər və verir də...

***V.VƏLİYEV***

# Özlərini aldadanlar və axmaq yerinə qoyanlar



**Ermənistanın hansı yolu tutduğu, ermənilərin nə ağıla qulluq etdiyi, nəinki dünya ictimaiyyəti, hətta bu ölkənin vətəndaşları üçün də müəmmalı olaraq qalmaqdadır, çünki qərarsızlıq və yanlışlıqlar əndazəni aşıb. Artıq erməni cəmiyyəti bir onu dəqiq bilir ki, axmaq yerinə qoyulub və mövcud hakimiyyət də, müxalifət də əvvəlkilər kimi oyun oynayır, özü də axmaq bir oyun. Təbii ki, erməni xalqını dayanmadan, durmadan aldatmaq niyyətinə axmaqlıqdan başqa bir ad verməklə olmaz və bunun bir sonu olacağını dərk etməmək mümkün deyil.**

Kainatda hidrogen ən geniş yayılmış element olduğu kimi, Ermənistanda da axmaqlıq ən çox rast gəlinəndir desək, yanılmarıq, çünki bu ölkə hələ də öz durumunu ya anlamır, ya da özünü anlamazlığa vurur. Artıq reallıqlar, Azərbaycanın yaratdığı reallıqlar göz önündədir və bu reallıqları bütün dünya qəbul edir, amma işğalçı ölkənin hakimiyyəti də, müxalifəti də bu reallıqları görməməzliyə vurmaq istəyir və məhz buna görə cəsarətlə deyə bilirik ki, bununla da özlərini axmaq yerinə qoyurlar.

Heç bir alternativ təklif edə bilmədiyi halda, Ermənistanın müxalifəti hakimiyyəti qınayır, hakimiyyət isə müxalifətdən qorxduğu üçün bu qınağı minimuma endirmək məqsədi ilə bütün ağılsız addımlara rəvac verir. İndi erməni cəmiyyətində "revanşist" ideyalar yaymağa çalışan müxalifət hansı güclə, hansı potensialla, hansı resurslarla revanş götürüləcəyini izah edə bilməsə də, kor tutduğunu buraxmayan kimi, tutduğunu buraxmır. Guya bu ölkə müxalifəti bilmirmi ki, cəmi 44 günlük müharibənin məntiqi nəticəsi olaraq Ermənistanın nə hərbi qüvvəsi, nə hərbi texnikası, nə də maliyyə resursu qalmayıb? Səfalət içərisində boğulan, ehtihac içərisində olan, hərbi qüvvəsi yox həddində olan bir ölkənin necə revanş götürəcəyi barədə Ermənistan müxalifətində, lap elə erməni cəmiyyətində kiminsə hansısa bir təklifi, göstərəcəyi yol varmı? Əgər bu ölkənin müxalifəti belə bir yol bilirdisə, niyə elə müharibə dövründə bu şəkildə çıxış etmirdi və revanş götürmək ideyası belə niyə onda yada düşmürdü? Gözləyirdilər ki, Ermənistan tamamilə məğlub duruma düşsün, hər şeyini itirsin sonra revanş haqqında düşünülsün? Bütün bunları görəsən Ermənistanın təkcə hakimiyyəti başa düşmür, yoxsa bu ölkənin vətəndaşları da dərk etmir? Əgər başa düşülürsə, dərk olunursa və hələ də 10 noyabr bəyanatından irəli gələn tələbləri yerinə yetirmək yubadılırsa, deməli, bütün erməni cəmiyyətini axmaq hesab edirlər və bu ölkənin hakimiyyəti də, müxalifəti də elə hakimiyyət naminə təmsil olunduğu cəmiyyəti ələ salıb. Çünki gec-tez sözügedən bəyanatdan irəli gələn tələblər yerinə yetirilməlidirsə, şərtlərə əməl edilməlidirsə, o zaman məsələni uzatmaq yalnız erməni cəmiyyətinin əleyhinə ola bilər və həmin cəmiyyət ələ salınmasaydı çoxdan artıq həmin tələblər yerinə yetirilərdi.

Nikol Paşinyanın küçə və meydanlarda danışdığı nağıllardan və bunun sayəsində də hakimiyyəti ələ keçirməsindən düz dörd ildən artıq vaxt keçib, amma vəd olunan qızıl dağlardan əsər-əlamət yoxdur. Dörd il bundan əvvəl Paşinyanın pafoslu çıxışları belə bir sual yaradırdı ki, görəsən, bu küçə nümayişçisi öz pafoslu yalanlarına özü inanırmı? Əgər inanıbsa, deməli özözünü də aldada bilib. Sözsüz ki, Nikol pafoslu çıxışları ilə eləcə də erməni cəmiyyətini aldatmağı bacarıb, amma əminik ki, dörd il bu hakimiyyəti müşahidə etdikdən sonra hər bir erməni, axmaqlığı öyrənən bir elm olan monologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya yaza bilər. Bir zamanlar Nikol Paşinyanın sağ əli olan Vanesyan kimilərinin incik düşəndən sonra müxalifətə keçməsi isə əks tərəfin də, yəni Ermənistan müxalifətinin də mahiyyətini ortaya qoyur və ümid edirik ki, həmin monologiya üzrə yazıla bilən elmi işdə işğalçı ölkənin müxalifəti də özünəməxsus şəkildə yer alar.

Ümumiyyətlə, Ermənistanın hakmiyyəti də, müxalifəti də yalan vədlər, pafoslar və uydurmalara görə Ginnesin rekordlar kitabına düşə bilər, daha doğrusu düşməlidir və bunun üçün sadəcə rekordu yeniləmək gərəkir. Çünki əvvəla, Ermənistanın hakimiyyəti ilə yanaşı, müxalifəti də "yaxın gələcək" üçün vədlər verərək daxili auditoriyanı dəfələrlə, özü də məharətlə aldadır və bu aldatmaların sayına görə birincilik onlara məxsusdur. Digər tərəfdən də az qala iki ilə yaxındır ki, "yaxın gələcək" deyə vəd verən qüvvələrin zaman vahidi Relyativistikanın, yəni, Nisbilik nəzəriyyəsinin banisi olan Albert Eynşteyn üçün də müəmmalı olardı.

Erməni cəmiyyəti açıq etiraf edir ki, bu cəmiyyət yalandan, uydurmadan, fərziyədən başqa heç nə eşitməyib və hətta indiki kimi, özü də bu qədər açıq, həyasız və cəzasız olaraq aldadılmayıb. Doğrudur, uydurmalar, yalanlar və yaradılan miflər erməni cəmiyyətinə, təkcə indi yox, elə hər zaman sırıdılıb və kütlə bununla da aldadılıb. Dırnaqarası "Böyük Ermənistan", eləcə də "dənizdən dənizə" mifi erməni cəmiyyətinin alt şüuruna höpdurlub ki, bu da həmin cəmiyyəti kimlərinsə ambisiyaları naminə hər zaman uçuruma, fəlakətə sürükləyib. Bu, ötən əsrin əvvəllərində də, 21-ci əsrin əvvəllərində də öz təsdiqini tapıb və ermənilər əslində bundan bir dərs də almalı idilər, amma görünür axmaqlıqları buna yol vermir. Məsələ burasındadır ki, erməni cəmiyyətinin aldadılması aydın olsa da, Paşinyan hakimiyyəti dövründəki qədər açıq-aşkar şəkildə dövlət miqyasında edilməyib və dövlət siyasəti kimi yürüdülməyib. Təbii ki, erməni müxalifəti də bu "ənənəyə" sadiqlik nümayiş etdirir və xalqını aldatmaqda, axmaq yerinə qoymaqda heç də Ermənistan hakimiyyətindən geri qalmır. Nəticədə isə aldadılan xalq olur və zülmü də həmin xalq çəkir.

Maraqlıdır, bir yalan ört-basdır edilməmiş yenisi necə uydurulur və bu yalan hansı üzlə xalqa sırınır? Hələ də erməni cəmiyyəti 44 günlük müharibədə məğlub durumda olduqları halda onlara qələbə qazandıqları barədə məlumat verən hakimiyyətdən bu yalanın hesabını sorub qurtarmaması fonunda, indi yeni uydurmaları hansı üzlə orataya atırlar? Bütün bu yalanlara, xalqı və öz-özünü axmaq yerinə qoymağa görə cavab verilməyəcəkmi? İndi ermənilərə elə gəlmirmi ki, bu cəmiyyətdə, erməni cəmiyyətində hamı yalan danışır və bütün bu yalanlara görə isə utanmaq heç kimin yadına belə düşmür? Yaxşı, yalan üzərində qurulan və öz auditoriyası axmaq yerinə qoyulan cəmiyyətin sonu barədə hansısa nikbin bir proqnoz vermək olarmı? Ermənistan bir dövlət olaraq heç nəyə görə cavabdehlik daşımaq istəmir və bu, bütün dünyada qəbuledilməzdir, nəinki daxili auditoriyada. Cavabdehlik daşımaq məsuliyyətini isə Ermənistan gec də olsa qəbul etməlidir və əks halda, beynəlxalq hüquqdan, normalardan və digər dəyərlərdən dəm vuran beynəlxalq təşkilatlar bunu həmin ölkəyə qəbul etdirməlidirlər. Qəbul etdirməlidirlər ki, səhvlərinə, yanlışlıqlarına, qanunsuz hərəkətlərinə və bütün normaları aşdıqlarına görə utanmaq, qızarmaq bilməyənlər bundan sonra hərəkətlərinə görə məsuliyyət daşısınlar.

***İnam Hacıyev***

## Uşaqlarda mədəniyyətin formalaşmasında ailənin rolu nədən ibarətdir?



"Uşaqlarda mədəniyyətin formalaşmasında ailənin rolu əvəzolunmazdır. Azyaşlı uşaqlarda müşahidə olunan hislərdən biri də estetik hislərdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, bəzi 2-3 yaşlı uşaqlar musiqini ən dərin incəliklərini dərk edir, yaxşı və pis musiqiyə öz münasibətlərini bildirirlər: "Eyni zamanda bədii şəkillər, əyləncəli və məzəli nağıllar da insanlarda estetik hislərin inkişafına müsbət təsir göstərir. Mədəniyyətin formalaşması birbaşa ailəyə aid olan bir məqamdır. Çünki uşaqların emosional həyatı müxtəlif məzmunlar kəsb edir. Uşaqların xüsusilə oğlanın qıza və ya qızın oğlana qarşı münasibəti onun tərbiyə aldığı ailədən irəli gəlir. Ailədə ata ilə ananın, nənə və babanın bir-birinə qoyduğu hörmətdən irəli gəlir. Bu münasibətlər uşaqlarda mədəniyyətin formalaşmasında mühüm rol oynayır".

***Arzu Qurbanlı***

## "Müxalifətin fəaliyyəti Azərbaycanın uğurlarına kölgə salmaqdan ibarətdir"



"Müxalifətin fəaliyyəti Azərbaycanın uğurlarına kölgə salmaqdan ibarətdir və bu xüsusda uzun müddətdir ki, fəaliyyət göstərirlər. Lakin heç nəyə nail ola bilmirlər. Çünki xalq iqtidar birliyi özünü göstərir və bu birlik sarsılmazdır, möhkəm dayaqlara əsaslanır". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, ictimai siyasi sabitliyə xələl gətirmək, narahatlıqları nümayiş etdirmək və bununla özünə diqqət cəlb etmək istəyən qüvvələrin də fəaliyyəti aradan qaldırılmalıdır: "Bunun üçün sosial şəbəkələr üzərində olan mənfi tendensiyalar monitorinq edilməlidir. Çünki çox mühüm geosiyasi bölgədə yerləşən Azərbaycanda ictimai siyasi sabitlik möhkəm təməllər üzərində dayanmışdır və siyasi iqtidarın bu istiqamətdə mühüm addımları və qərarları da mövcuddur. Ona görə də, istənilən mənfi ssenari qabaqlanmalı və preventiv tədbirlər gücləndirilməlidir. Düşünürəm ki, bu addımlar tezliklə aradan qaldırılacaq və müxalifətin istəkləri öz nəticəsini verməyəcəkdir".

***Gülyana***



# Xəzər: mehriban qonşuluq və sülh dənizi

Təhlil

**Azərbaycan yaxşı qonşu, sülh, əmin-amanlıq tərəfdaşı olduğunu tarixin bütün dövrlərində sübut etdirib. Qonşularına, onların atributlarına, ərazi bütövlüyünə hörmətlə yanaşan, mənsub olduqları dinə, mədəniyyətə həssas münasibət bəsləyən ölkəmiz bütün bunlara görə əməkdaşlıq üçün ən yaxşı dövlət kimi tanınır. Elə bu səbəbdəndir ki, Azərbaycan müstəqillik qazandıqdan sonra həm qonşu, həm də digər dövlətlərlə əməkdaşlığı artıq 30 ili ötür.**

İyunun 29-da Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı birgə əməkdaşlığın daha da inkişafında yeni mərhələ oldu. Toplantıda iştirak etmək üçün dövlətimizin rəhbəri Türkmənistanda səfərdə olmuşdur. Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısına dəvəti qəbul etdiyinə görə təşəkkürünü bildirərək 2002-ci ildə Aşqabadda keçirilmiş birinci sammitdə ulu öndər Heydər Əliyevin də iştirak etdiyini dərin ehtiramla yad etmişdir. Dövlət rəmisinin bu xatırlaması ötən illərdə dövlətlərimiz arasındakı münasibətlərin möhkəm təməllər üzərində qurulmasına və bu gün də eyni qaydada davam etdirilməsinə işarə idi.

Görüş zamanı Azərbaycan ilə Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Qurbanqulu Berdiməhəmmədov ötən illər ərzində siyasi, iqtisadi-ticari və mədəni-humanitar sahələrdə böyük işlərin görüldüyünü vurğulamışdır. Türkmənistanın neytral statusunu daim dəstəklədiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Qurbanqulu Berdiməhəmmədov ölkəsinin Azərbaycan Prezidentinin beynəlxalq arenada qarşılıqlı hörmətə və etimada əsaslanan təşəbbüslərinə verdiyi daimi dəstəyi qeyd etmişdir.

Xəzər dənizinin mehriban qonşuluq və sülh dənizi olduğunu qeyd edən Qurbanqulu Berdiməhəmmədov bu görüşün ümumi mənafelərimiz naminə Xəzərdə əməkdaşlığa yaxşı təkan verəcəyinə əminliyini bildirmiş, Bakı sammitində mühüm məsələlərin müzakirə olunduğunu xatırladaraq Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın qəbul olunmasının əhəmiyyətini vurğulamış, dövlətlərimizin birgə təşəbbüsləri ilə logistika və nəqliyyat-tranzit dəhlizlərinin qurulmasının önəmini, iqtisadi əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyini bildirmişdir.

Türkmənistanın Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qəbul edilməsinə və fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirən Qurbanqulu Berdiməhəmmədov parlamentlərarası əlaqələrin də uğurla inkişaf etdiyini, ölkəsinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransına geniş nümayəndə heyəti ilə qatıldığını demişdir.

## Ortaq soykökünə malik qardaş Türkmənistan

Ortaq soykökünə malik qardaş ölkəyə yenidən səfər etməkdən məmnunluğunu vurğulayan dövlətimizin başçısı xoş sözlərə görə minnətdarlığını bildirmiş, Qurbanqulu Berdiməhəmmədovu yubileyi münasibətilə təbrik etmiş, qardaş Türkmənistanın inkişafı naminə bundan sonrakı fəaliyyətində də ona uğurlar arzulamışdır. Onun rəhbərliyi illərində Türkmənistanın neytrallıq statusunu möhkəmləndirməklə yanaşı, müstəqil xarici siyasət yürüdərək beynəlxalq arenada nüfuz qazandığını, sürətlə inkişaf etdiyini, paytaxt Aşqabadın ildən-ilə gözəlləşdiyini bildirmiş, Türkmənistanın yeni Prezidenti Sərdar Berdiməhəmmədovun da ölkəni inkişaf və tərəqqi yolu ilə aparacağına əminliyini ifadə etmişdir.

Azərbaycanla Türmənistan arasında uzun illərdir ki, qarşılıqlı münasibətlər səmimi şəkildə davam etdirilir. Buna ölkələrimizin qarşılıqlı dəstəyini vurğulayan dövlətimizin başçısı həm ikitərəfli, həm də çoxtərəfli formatda ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmiş, əsas məqsədin əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı siyasi fəaliyyəti daha da möhkəmləndirmək, mədəni əlaqələrin potensialını tam üzə çıxarmaq olduğunu demişdir.

Xəzər dənizindən keçməklə Türkmənistanla Azərbaycan arasında yük axınının artdığını vurğulayan Prezident İlham Əliyev bildirmişdir ki, bu, həm ölkələrimizin, həm də qonşularımızın mənafelərinə uyğundur. Bu gün Xəzərdən keçən nəqliyyat marşrutu xüsusi əhəmiyyət kəsb edir. Həm Türkmənistanda, həm də Azərbaycanda müasir dəniz limanları inşa edilib, dəmir yolu infrastrukturuna böyük sərmayə qoyulub.

Zirvə Toplantısının əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev ilk sammitin də 20 il əvvəl Türkmənistanın təşəbbüsü ilə keçirildiyini xatırlatmış və əminliyini bildirmişdir ki, VI Zirvə Toplantısında qəbul ediləcək qərarlar Xəzərin potensialını tam reallaşdırmağa, onu sülh, təhlükəsizlik, əməkdaşlıq və ekoloji cəhətdən təmiz zona kimi qoruyub saxlamağa imkan verəcək.

## Xəzər dənizi region xalqlarının rifahına xidmət edir

İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxış edən dövlətimizin başçısı göstərilən qonaqpərvərliyə və VI Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Sərdar Qurbanquluyeviç Berdiməhəmmədova təşəkkürünü bildirmişdir. Bu görüşün Türkmənistanın keçmiş Prezidenti, əziz dostu və qardaşı, Türkmənistan Parlamentinin Xalq Məsləhətinin sədri Qurbanqulu Məlikquluyeviç Berdiməhəmmədovun yubileyi ilə eyni vaxta düşdüyünü vurğulayan dövlətimizin başçısı qardaş Türkmənistanın onun rəhbərliyi ilə müstəqilliyinin möhkəmləndirilməsini, beynəlxalq arenada nüfuzunun artmasını, xalqın rifahının yüksəlməsini və iqtisadi inkişafda sanballı uğurlar qazanmasını bildirmiş, Qurbanqulu Məlikquluyeviçi şəxsən öz adından və Azərbaycan xalqı adından təbrik etmiş, ona möhkəm cansağlığı, qardaş Türkmənistan xalqına əmin-amanlıq və firavanlıq diləmişdir.

Prezident İlham Əliyev Sərdar Qurbanquluyeviçi Türkmənistan Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etmiş, onun rəhbərliyi ilə Türkmənistanın yeni uğurlar qazanacağına əminliyini bildirmişdir. Dövlətimizin başçısı çıxışında Azərbaycanın Xəzəryanı ölkələrin qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verdiyini vurğulayaraq demişdir: Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış Konvensiya tarixi əhəmiyyət kəsb edir. Çoxillik iş nəticəsində imzalanmış bu sənəd Xəzərin hüquqi statusunu müəyyən edib. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq.

"Xəzəryanı dövlətlərin əməkdaşlığının müqavilə-hüquqi bazası möhkəmlənir. Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə sazişlər imzalanıb və qüvvəyə minib. Əməkdaşlıq barədə sazişlərin yeni layihələri üzərində iş başlanıb. Bu layihələr müzakirə prosesindədir və hazır olduqca imzalanmaq üçün təqdim ediləcək. Xəzər dənizinin dibinin sərhədləri barədə ikitərəfli və çoxtərəfli formatlarda hüquqi cəhətdən məcburi sazişlər də bağlanıb",-deyən ölkəmizin başçısı Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətlərinin, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amili olduğunu qeyd etmişdir.

Azərbaycanın yaxşı qonşu, əmin-amanlıq istəyən bir ölkə olduğu Prezidentimizin bütün çıxışlarında olduğu kimi, Zirvə Toplantısında yenidən səslənmişdir: Bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir.

Xəzər dənizi bizim regionun xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır.

Nəqliyyat infrastrukturunun inkişafının, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılmasının əməkdaşlığın mühüm istiqaməti olduğunu nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələrin Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaratdığını bildirən dövlətimizin rəhbəri bu gün Azərbaycanın Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biri olduğunu bildirmişdir: ”Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır. Biz Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsinə səy göstəririk. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və nəqliyyat infrastrukturunun inkişafına dair yeni layihələrin həyata keçirilməsinə şərait yaradacaq Biz Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə Azərbaycan ərazisindən keçməklə yükdaşımaların hər il artmasını müşahidə edirik. Yeni Ələt Beynəlxalq Dəniz Ticarət Limanından gələn tranzit yüklərin həcmi artır. Bu limanın tikilməsi və istifadəyə verilməsi Xəzərdə nəqliyyat-logistika infrastrukturunun inkişafı işinə Azərbaycanın daha bir mühüm töhfəsi olub. Bu il Azərbaycanda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin koordinasiya şurasının VIII görüşünün keçirilməsi də planlaşdırılır.

Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb. Zəngəzur dəhlizi artıq reallığa çevrilir”.

## Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Dünyada hökm sürən qlobal iqlim dəyişməsi bəzi ölkələrdə meşə yanğınları, bəzi ölkələrdə su qıtlığı, bəzi ölkələrdə isə həddindən artıq istilərlə müşahidə olunduğu dövrdə bütün bunlardan görəcəyimiz qabaqlayıcı tədbirlərlə və qoruya biləcəyimiz resurslarımızla xilas ola bilərik. Xəzər dənizi də təbii ki, bu problemlərdən kənarda deyil. Bu narahatçılığı dövlətimizin başçısının Zirvə Toplantısındakı çıxışında da gördük: ”Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik. Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Bu ilin sonunda Bakıda ”Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub. Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yaqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər”.

Xəzər dənizinin ekoloji cəhətdən qorunmasının Xəzəryanı ölkələrin birgə əməkdaşlığına töhfə olmasını nəzərə alsaq, sammitdə bu məsələyə toxunulması və bu sahədə də birgə əməkdaşlığa dəvəti bu gündən gələcəyə hesablanmış uğur kimi dəyərləndirmək olar. Zirvə Toplantısında çıxış edən İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sammitin əhəmiyyətini vurğulamaları Xəzəryanı ölkə başçıları olaraq böyük maraq doğurur.

## Türkmənistanda Prezidentlərin görüşü ikitərəfli əməkdaşlığın da möhkəmləndirilməsinə böyük imkanlar açıb

Aşqabadda görüşləri zamanı Prezident Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevə Zirvə Toplantısına dəvəti qəbul edib iştirak etdiyinə görə minnətdarlığını bildirmiş, ilk sammitin 2002-ci ildə Aşqabadda keçirildiyini xatırlayaraq həmin tədbirdə uzunmüddətli perspektiv üçün əməkdaşlığın əsasının qoyulduğunu vurğulamışdır. Sərdar Berdiməhəmmədov 2018-ci ildə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasına toxunmuş, Xəzər dənizində nəqliyyat, gəmiçilik, sülhün, ekoloji təhlükəsizliyin qorunması, balıqçılıq, fövqəladə hallar barədə xəbərdarlıq və onların qarşısının alınması sahələrində əməkdaşlıq barədə bir çox müqavilə üzrə işin aparıldığını vurğulamışdır. Xəzər dənizinin ümumi sərvət olduğunu deyən Türkmənistanın dövlət başçısı regionda səmərəli qarşılıqlı fəaliyyətin inkişafına verdiyi şəxsi töhfəsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Türkmənistanın Xəzər dənizində və Xəzəryanı dövlətlər arasında əməkdaşlığa töhfəsini yüksək qiymətləndirən Azərbaycan Prezidenti VI Zirvə Toplantısının təhlükəsizlik, ekologiya, su ehtiyatları istiqamətləri üzrə əməkdaşlığın möhkəmlənməsi işində daha bir addım olacağına əminliyini bildirmişdir. Xəzərin əsrlər boyu qonşu kimi yaşamış xalqlarımızı birləşdirən dəniz olduğunu deyən Prezident İlham Əliyev regionumuzda gələcək təhlükəsiz inkişafın təmin ediləcəyinə əminliyini bildirmiş, bu işdə Xəzəryanı dövlətlərin böyük rolunu vurğulamışdır. İkitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bildirmişdir ki, bu əlaqələri yüksək qiymətləndiririk. Prezident İlham Əliyev gələcəkdə dövlətlərarası əlaqələrin səviyyəsini daha yüksəyə qaldırmaq üçün Prezident Sərdar Berdiməhəmmədov ilə ikitərəfli formatda da fəal işin aparılacağına əminliyini ifadə etmişdir.

***

Aşqabadda görüşləri zamanı İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev demişdir: - Sizi görməyimə çox şadam. Keçən dəfə də burada - Türkmənistanda görüşmüşdük, bu dəfə də. Keçən görüşdən sonra münasibətlərimizə çox gözəl təkan verildi və əlaqələrimiz daha da sürətlə inkişaf etməyə başlamışdır. Hökumət üzvlərinin qarşılıqlı səfərləri təşkil edildi. Bir sıra məsələlərlə bağlı çox yaxşı irəliləyiş var, xüsusilə nəqliyyat, energetika və digər sahələrdə. Ona görə əminəm ki, bugünkü görüşdən sonra da əlaqələrimizin inkişafına növbəti təkan veriləcək və qardaş xalqlarımızın birgə gələcəyi təmin ediləcək. Xalqlarımızın ortaq tarixi münasibətlərimiz üçün çox gözəl təməldir.

İran Prezidenti Seyid İbrahim Rəisi dövlətimizin başçısı ilə görüşməkdən çox məmnun olduğunu bildirmiş və demişdir: Düşünürəm, Xəzər dənizi ilə bağlı önəmli məsələlərdən biri budur ki, Xəzəryanı ölkələrin dövlət başçıları mütəmadi olaraq görüşürlər. Əlbəttə, Zati-alinizin Tehrana səfər etmək, mənim də Bakıya səfər etmək kimi planlarımız var. Lakin bizim belə platformalardan istifadə edib görüş keçirməyimiz də münasibətlərimizin inkişafına kömək edir. İki ölkə arasında münasibətlərin potensialı hazırda mövcud olandan daha çoxdur. Hesab edirəm ki, biz münasibətlərimizdə olan bir çox potensialdan tam istifadə edə bilməmişik. Düşünürəm ki, iki ölkə arasındakı siyasi, iqtisadi münasibətlər, ticarət, mədəniyyət əlaqələri mövcud olan vəziyyətdən daha da inkişaf etdirilə bilər.

***

Xəzər Sammiti çərçivəsində Prezident İlham Əliyev ilə görüşməkdən məmnunluğunu ifadə edən Prezident Vladimir Putin dövlətimizin başçısının Rusiyaya səfərini xatırlatmış, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsinin önəmini bildirərək əlaqələrimizin genişləndiyini və hazırkı səviyyəsinin çox yaxşı olduğunu, bütün məsələlərin icra edildiyini vurğulamışdır: Ticarət dövriyyəsi artır. Bu artım keçən il 16 faizdən çox, bu ilin üç ayının nəticələrinə görə 5,5 faiz təşkil edib. Beləliklə, ticarət dövriyyəsinin inamlı artımı müşahidə olunur.

Siyasi əlaqələrimizə toxunan Prezident Vladimir Putin Rusiya xarici işlər nazirinin Bakıya səfərini xatırlatmış, Rusiya hökuməti sədrinin və Dövlət Duması sədrinin də Bakıya səfərlərinin planlaşdırıldığını qeyd etmişdir. Rusiya dövlətinin başçısı bildirmişdir ki, ən əsası isə 2024-cü ilə qədər Rusiya-Azərbaycan birgə əməkdaşlıq planının reallaşdırılmasıdır. Beləliklə, bütün sahələrdə inkişaf var.

Prezident Vladimir Putin qeyd etmişdir ki, regional təhlükəsizlik, o cümlədən Qarabağ məsələsinin nizamlanması barədə də Azərbaycan dövlətinin başçısı ilə müzakirə aparılıb və bu görüş də həmin mövzunun nəzərdən keçirilməsi üçün imkan yaradır.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Rusiya Prezidenti ilə görüşdən məmnunluğunu ifadə etmiş və keçirilən görüşlərin həmişə əlaqələrimiz üçün çox önəmli olduğunu, ölkələrimiz arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına töhfə verəcəyinə əminliyini bildirmişdir. Prezident İlham Əliyev həmçinin ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasından, eyni zamanda, sənaye kooperasiyası, nəqliyyat və energetika sahələrində əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etmiş, bu görüşün regional məsələlərin müzakirəsi üçün də yaxşı imkanlar yaratdığını demişdir.

Beləliklə Türkmənistanda reallaşan Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı həm Xəzəryanı dövlətlərin əməkdaşlığının ümumi inkişafına, həm də bu toplantı çərçivəsində Prezidentlərin görüşləri ilə ikitərəfli əməkdaşlığa böyük töhfə oldu. Hazırda regionda hökm sürən sakitlik, qarşılıqlı anlaşma buradakı dövlətlər arasında əməkdaşlığın perspektivlərindən xəbər verir. Digər bir tərəfdən isə bu sammit bir məsələni də ortaya qoydu ki, qonşuluqda dinc, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamaq həm də qarşılıqlı münasibətləri, inkişafı, birgə fəaliyyəti müəyyənləşdirir. Bunu isə təbii ki, qonşu dövlətlərin özləri müəyyənləşdirir: dost kimi yaşayıb əməkdaşlıq etməyi də, düşmən olub kənarda təklənib qalmağı da

***Mətanət MƏMMƏDOVA***





# Yol infrastrukturu müasir səviyyədə qurulur

*Dövlət başçısının Sərəncamı ilə Bakı - Şamaxı - Yevlax Aşağı Güzdək avtomobil yolunun tikintisinə 1,4 milyon (bir milyon dörd yüz min) manat ayrılıb*

**Bu gün inkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.**

Bölgələrdə yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu gün, həmçinin güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Son 19 ilin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

Azərbaycanın bütün dünyada olduğu kimi pandemiya ilə mübarizə aparmasına, eləcə də 44 günlük Vətən müharibəsi yaşamasına baxmayaraq, sosial layihələri davamlı olaraq həyata keçirir. Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb.

Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur, yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Həmin yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir.

Bu günlərdə bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev "Ağstafa rayonunun Ağstafa-Poylu-Gürcüstanla dövlət sərhədi (11 km)-Qıraq Kəsəmən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Ağstafa-Poylu-Gürcüstanla dövlət sərhədi (11 km)-Qıraq Kəsəmən avtomobil yolunun tikintisi məqsədilə dövlət büdcəsindən 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Dövlət başçısının digər Sərəncamı ilə dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi məqsədilə dövlət büdcəsindən 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrıldı.

Daha sonra dövlət başçısının "Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamına əsasən, Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə dövlət büdcəsindən 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrıldı. Görülən işlərin davamı olaraq Azərbaycan Prezidenti İlham Əliyev "Abşeron rayonunun Bakı-Şamaxı-Yevlax (18 km)-Aşağı Güzdək avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı-Şamaxı-Yevlax (18 km)-Aşağı Güzdək avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Ölkəmizdə sosial həyatın daha da yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişməsində aparılan dövlət siyasətinin mühüm rolu var.

***Zümrüd BAYRAMOVA***

# Küçə mədəniyyəti necə olmalıdır?

*EKSPERT AÇIQLADI*

"Feodalizm dövründən bu günə qədər birgəyaşayış mədəniyyətinin əsas hissəsindən sayılan davranış mədəniyyəti, etik normalar, ictimai yerlərdə, küçədə insanların qrup halında toplaşdığı yerlərdə özlərini qrup halında aparmaq mədəniyyəti ilə əlaqədar müəyyən dəyərlər hazırlanıb". Bu sözləri SİA-ya açıqlamasında yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov deyib.





Onun sözlərinə görə, bu dəyərlərin bir hissəsi milli dəyərlər olsa da, böyük bir hissəsi bəşəri dəyərlər sayılır: "Təəssüflər olsun ki, uzun müddətdir ki, Azərbaycanda milli dəyərlərimizə hər kəs tərəfindən riayət olunması ilə əlaqədar maarifləndirici tədbirlər aparılsa da, hələ də bu istiqamətdə boşluqlar var. İctimai yerlərdə insan özünü bir şəxs olaraq necə aparmalıdır ki, başqaları ilə konflikt yaşamasın. Biz küçədə tez-tez mənfi hallarla rastlaşırıq. Təkcə küçədə yox, eyni zamanda avtobuslarda, metroda mənfi halların şahidi oluruq. Bu tipli hadisələr bir daha onu göstərir ki, insanlar hələ də birgəyaşarlığın etik davranış normalarına riayət etmək istəmirlər. Xüsusən də sosial şəbəkələrdə xarici ölkələrin təsiri ilə formalaşan gənclərdə getdikcə davranış normalarına riayət edilməməsi faktlarını görürük.

İnsanlar bir-birinə hörmətsiz davranır, ictimai nəqliyyatda bir-birilərinin ayaqlarını əzirlər, küçədə və parklarda saqqız və siqaret kötüklərini yerə tullayırlar. Buna qarşı inzibati məsuliyyət gücləndirilsə də cərimələr artırılsa da, tədbirlər və layihələr həyata keçirilsə də yenə də biz bu məsələlərdə problem yaşayırıq. Bizim hər bir xüsusiyyətimiz şəhərə gələn turistlərə, iş adamlarına da müsbət və ya mənfi təsir göstərə bilər. Davranış mədəniyyəti, etik normalar dedikdə yalnız özünü aparmaq, paltar geyinmək, danışıq tərzinə aid deyil. Bu, həm də ətraf mühitə olan münasibətimizdir. Bu, çox böyük bir problemdir. Davranış və etik normalar birgə yaşarlıq üçün, sərbəst şəkildə bir-birimizin hüquqlarına hörmət etmək üçündür. Əgər, biz bunlara fikir verməsək, həm kiçik, həm böyük konfliktlər yarana bilər".

***Arzu Qurbanlı***

# Dövlət büdcəsinin gəlirləri açıqlanıb



2022-ci ilin ilk altı ayında dövlət büdcəsinin mədaxili 14205,5 milyon manat, xərcləri 12936,6 milyon manat olub, 1268,9 milyon manat məbləğində dövlət büdcə sinin artıqlığı (profisit) yaranıb.

Bu barədə SİA-ya Maliyyə Nazirliyindən məlumat verilib. Qeyd edilib ki, 2022-ci ilin ilk altı ayında dövlət büdcəsinin mədaxili 14205,5 milyon manat və ya altı aylıq proqnoza qarşı 973,7 milyon manat (7,4 faiz) çox icra olmuşdur. Bu 2021-ci ilin eyni dövrü ilə müqayisədə 2450,5 milyon manat və ya 20,8 faiz çoxdur.

# Hicab, yoxsa dəb



**Hicab (ərəbcə - arakəsmə, pərdə, örtük, deməkdir; çadra, niqab, parəncə də bu qəbildəndir) - müsəlman qadınların küçəyə çıxarkən geydikləri, üzlərini və bədənlərini örtdükləri örtük və çiyinlikdir. Əvvəlcə hicab örtmək Məhəmmədin zövcələrinə əmr edilmişdi, sonra isə bütün müsəlman qadınlarına şamil edildi. Nur surəsi 31-ci ayətdə və Əhzab surəsinin 59-cu ayətlərin enməsiylə müsəlman qadınlara Allah tərəfindən əmr olunub. Hicab müsəlman şəhərlərinin hər yerində yayılmışdı, lakin kəndli qadınlar və köçəri qəbilələrin qadınları çox vaxt hicab örtməmişlər.**

Hicabın müxtəlif növləri vardır: bütün bədəni və ya ancaq üzü örtmək üçün işlədilən qara rəngli və bəzən də başqa rəngdə olan hicablar, göz üçün xüsusi toru və ya dəliklə-



ri olan hicablar, başa örtülən qara yarımşəffaf hicablar və s.

Müasir müsəlman alimləri, ümumiyyətlə, qadınlardan əlləri və üzlərindən başqa hər şeyi ictimai yerlərdə örtmələrini tələb edir, lakin örtüyü (bəzi müsəlman qadınların geyindiyi üz örtüyünü) vacib hesab etmirlər. Hicab demək olar ki, bütün müsəlman mədəniyyətlərində gənc qızlar üçün məcburi deyil.

Maliki və Hənbəli məzhəbində hakim olan fikir budur ki, qadının əlləri, üzü, başı,



boynu, qolları, ayaqları və baldırları istisna olmaqla, bütün bədəninin övrət olması və onun örtülməsidir. Qadının yad kişilər, yəni naməhrəm kişilər qarşısında övrət yeri üzü, əlləri və ayaqlarından başqa bütün bədənidir.

## Örtünmək məcburidir?

Quranda başın örtülməsini açıq şəkildə əmr edən bir ayə yoxdur. Baş örtüyünün vacib olmasını sübut etmək üçün yalnız bir ayə irəli sürülür və bu Nur surəsinin 31-ci ayəsidir.

## Həqiqi örtük necə olmalıdır?

Geyimlər geniş olacaq bədənə yapışıb cizgilərini göstərməyəcək.

## Quranda qapanma varmı?

ARAŞDIRMA

Kişi və qadının ayıb yerlərini örtməkdən başqa, qadın və kişilərin baş və ya digər hissələrinin bu və ya digər şəkildə örtüləcəyini bildirən açıq-aydın bir ayə yoxdur.

Müasir dövr dəbi və gözəl görsənməyi hər bir baxımlı qadının stereotipinə çevirib. Bu əlamətlər hətta dindar və hicablı qadınlara da sirayət edib. Onlar dinlə dəbi uzlaşdıraraq fərqli "müasir hicab" obrazını yaradırlar.

Beləliklə, əksər xanımlar hicaba "müasir stil" verərək onu dəblə birləşdirməyə çalışır. Lakin onların arasında çarşabdan yalnız bir müddət geyim dizaynı kimi istifadə edənlər də var.

Bəs İslam dinində və şəriətdə müasirliyin bu stereotiplərinə necə yanaşılır? Din dəbdə nələri qadağan edir? Quranda rənglər barədə hansı məhdudiyyətlər var? Bəziləri hicabı niyə dəbə çevirib? SİA olaraq bunları öyrənmək üçün din xadimi, geyim mütəxəssisi və ekspertlərin fikirlərini öyrənib.

**Din xadimi Mircəfər Əyyubov:** "Hicablı xanımların hicabı dəbə çevirməsini düzgün saymıram. Hicab xanımların gözəlliyini naməhrəmdən gizlətməsi üçündür. Hicabı dəbə çevirmək isə xanımın öz gözəlliyini reklam etməkdir.



Lakin hicab dəbə çevrilir deyə hicaba və hicablılara hücum etməyi də düzgün hesab etmirəm. Bir xanımın öz başını örtməsinin nə qədər cəsarət tələb etdiyini bilmək üçün hicab bağlamayan xanımlar arasında sorğu aparmaq kifayət edər.

Düzgün maarifləndirmə və empati yaratmaq yolu ilə bu məsələdə uğur qazanmaq olar".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə:** "Hicab geyinmək İslamın tələblərindən biridir. Yəni, hicab hər bir müsəlman qadına vacib buyrulub. Yəqin buna görədir ki, son illər ölkəmizdə hicab geyinən xanımların sayı artıb. Mən bunu normal qarşılayıram.



Azərbaycan hüquqi dövlətdir. Bizim ölkəmizdə hər bir insanın istədiyi kimi geyinmək hüququ var. Əgər qanun bunu qadağan etmirsə, bizim kiminsə geyiminə qarışmağımız doğru deyil. Kim istəyir hicab geyinsin, kim istəyir şortik.

Bəzən valideynlər qızlarını hicab geyinməyə vadar edirlər. Bəzən də hansısa xanım fərqlənmək üçün hicab taxır. Hicabı dəb üçün taxanlar da var. Hər üç halı doğru hesab etmirəm. Hicab geyinmək qadının içindən gəlməlidir. Hicab onun daxili-mənəvi aləmini əks etdirməlidir.

Ümumiyyətlə, mən insana geyiminə görə qiymət verməyin tərəfdarı deyiləm. İnsana geyiminə görə deyil, əməlinə görə dəyər verilməlidir. Bu, həm kişiyə, həm də qadına aiddir".

**Style consulting şirkətinin baş direktoru, stil məsləhətçisi Türkan Babayeva:** "Hicab və dəbin, modanın eyni cümlədə işlənməsi məncə çox maraqlı, aktual və müzakirələrə səbəb olan bir mövzudur. Çünki bəlkə də din xadimləri buna tam başqa prizmadan, moda insanları, stilistlər isə başqa tərəfdən fikir bildirəcək. Mən də bir stil məsləhətçisi, xanımlarla işləyən bir insan kimi demək istəyirəm ki, insan üçün geyinmək bədəni bağlamaqdan daha irəli bir şeydir. Yəni tərz özünü ifadə üsuludur və burada yaş, sosial həyat, dini mənsubiyyətdən asılı olmayaraq xarakter və özünü ifadə etmə forması önəm daşıyır. Yəni ruhunda əyləncə,yaradıcılıq və ya sakitlik və.s kimi başqa xüsusiyyətlər olan insanın hicablı və ya hicabsız olmağı xarakterinə təsir etmədiyi kimi geyim şəklinə də təsir etməməlidir.



Bəli, hicablı bir xanım hansısa bədən vurğusu, açıqlıqla bunu etmirsə o demək deyil ki, öz xarakterini geyimində əks etdirə bilməz. Rənglərlə, başqa aksesuarlarla və ya geyimlə başqa şəkildə oynayaraq da özünü ifadə edə, moda ilə ayaqlaşa bilər. Bu yaxınlarda bir hicablı müştəri ilə işlədik və xanımın qardirobu tam rəngsiz idi. Amma xaraktercə çox əyləncəli, şən bir insan idi və o qardirob onu əslində çox sıxırdı. Bizlə işlədikdən sonra qardirobuna qatılan rənglərlə xanım sanki özünü tapdı.

Xanımların həyat tərzi dəyişdikdə, məsələn hicaba keçdikdə, işində, vəzifəsində ciddi dəyişiklik olduqda, çəki dəyişimi yaşadıqda və s. kimi hallar geyimlərini, özlərini tapa bilməmək kimi problemlər yaradır. Buna görə də bu hallarda daha diqqətli olub öz daxili aləmlərini, öz ruhlarını unutmamağı tövsiyyə edirəm. Hicablı xanımlarla işlədiyimiz zaman qaydalarının nə dərəcədə sərt olduğunu da nəzərə alırıq. Bəzən kəmərlə bel vurğusu edə bildiyimiz halda bəzən isə bunu ancaq rənglə edə bilirik. Amma hər bir halda hər xanımın öz geyimindən zövq almaq, özünü ifadə etmək kimi bir haqqı var məncə və hicablıdır deyə modadan kənar qalmamalıdır".

***Ayşən***

# Gənclər niyə evlənmək istəmir?

**Son zamanlar demək olar ki, hər kəsin müşahidə etdiyi bir fakt var: gənclər evlənməkdən uzaqlaşırlar. Bəziləri səbəb kimi xərcləri göstərir, bəziləri məsuliyyəti üzərinə götürmək istəmir, bəziləri hələ hazır olmadıqlarını və ya belə çətin qərar üçün hələ tez olduğunu bildirirlər.**

Ailə qurmaq, evlənmək və uşaq dünyaya gətirmək gözəl olsa da, həm də zəhmət tələb edən işdir. İndiki həyat şəraitində bu vəziyyət daha da çətinləşir. Çünki günü-gündən bahalaşan dünya insanların mənəvi durumu ilə yanaşı maddi durumuna da təsir edir. Bunun ən bariz sübutu 20-30 yaş arası gənclərin artıq evliliyə o qədər də həvəs göstərməməsidir.





Evliliklərin azalması, nikah yaşının və boşanmaların artması ilə bağlı aparılan araşdırmalarda gənclərin evliliyə başlaya bilməməsinin səbəbləri arasında alimentlər, evliliklərdəki neqativ nümunələr, maddi sıxıntılar, işsizlik, dolanışığın baha olması göstərilir.

Statistika göstərir ki, bütün dünyada gənclər evliliyi gecikdirməyə, uşaq sahibi olmamağa və tək yaşamağa üstünlük verirlər. Əksər gənclər ailə qurmaq əvəzinə şəhərlərə köç edib, karyeralarına diqqət yetirib, sevdiyi ilə eyni evdə yaşamağa və eşq yaşamağa üstünlük verirlər.

ABŞ-da Xəstəliklərin Qarşısının Alınması və Nəzarət Mərkəzinin məlumatlarına görə, 1980-ci illərdən bəri evlilik nisbətlərində ciddi dəyişikliklər qeydə alınıb. Buna uyğun olaraq, ABŞ-da 1980-ci illərdə heç vaxt evlənməmiş qadınların nisbəti 22,5% ikən, 2017-ci ildə bu nisbət yüzdə 29,3-ə yüksəlib.

Yenə 1980-ci illərdə ilk dəfə ailə quran qadınların orta yaşı 22 ikən, 2000-ci illərdə bu rəqəm 27,4-ə yüksəlmişdir. Kişilər üçün ilk nikah yaşı 1980-ci ildəki 24,7-dən 2017-ci ildə 29,5-ə yüksəlib.

Birləşmiş Əhali Fondunun iqtisadçısı Michael Herrmann açıqlamasında insanların ailə qurmağa gec başlamasının səbəblərindən biri kimi iqtisadi səbəbləri göstərib. İnsanların ilk növbədə özlərini iqtisadi cəhətdən təhlükəsiz hiss etmək və təhsillərini başa vurmaq istədiklərini ifadə edən Herrmann bunun getdikcə daha çox vaxt apardığını bildirib.

Daha bir maraqlı məlumat ondan ibarətdir ki, gənclər evlənmək üçün daha çox onlayn tanışlıq saytlarına üstünlük verirlər. Annie data tətbiqinə görə, 2005-2012-ci illər arasında evliliklərin üçdə biri onlayn tanışlıq saytları və proqramlarında başlayıb. Bu saytlara ödənilən rüsum da iki il ərzində üç dəfə artıb.

Birləşmiş Millətlər Təşkilatının (BMT) 2017 məlumatlarına baxılaraq hazırlanan cədvələ görə, Türkiyədə orta evlilik yaşı 26,2-dir. Son 20 ildə bu nisbətə baxanda təbii ki, yuxarıya doğru artıb. Bir sözlə, gec evlənmək yeni trenddir.

## Avropa qitəsi daha gec evlənir

"Ən gec evlənənlər" kimi siyahıya alsaq, əvvəlcə Almaniyanın adını yazmaq lazımdır. Çünki orta yaş 33,1 olan Almaniya gəncləri ən gec evlənən ölkədir. Amerikada orta evlilik yaşı 27,9 olduğu halda, Avropa qitəsi daha gec evlənir. Asiya və Afrika qitələrinin daha erkən yaşlarda evləndiyini görürük. Ən aşağı orta nikah yaşı olan ölkə 21,9 ilə



İndoneziyadır. Oradan yuxarı baxanda Hindistan, Banqladeş kimi ölkələr var.

Evlilik yaşı artdıqca uşaq sahibi olmaq və uşaqların sayının azalması da nəzərəçarpacaq dəyişikliklərə məruz qalır. Avropa ölkələrində evlilik nisbətləri aşağı düşərkən, nikah yaşı yüksələrkən uşaq sahibi olanların sayı azalmaqda davam edir.

Fransada Milli Demoqrafik Araşdırmalar İnstitutunun dərc etdiyi hesabata görə, Avropada 1970-ci illərdə doğulan qadınların beşdə birinin övladı yoxdur. Yəni hər beş evlilikdən birində cütlük uşaq sahibi olmaq istəmir. Uşaqsız nikahların ən yüksək olduğu ölkələr Yunanıstan, İtaliya və İspaniyadır ki, bu göstəricilər 20 faizdən yuxarıdır.

Yanlış ailə siyasəti, işsizliyin artması, qadınların həm işdə, həm də evdə işləmək məcburiyyətində qalması nəticəsində təbii ki, Qərbdən bütün dünyaya fərdilik anlayışı yayıldı. Yəni məsələnin kökündə bu anlayış dayanır: Yalnızlıq. Bu mənada uşaqsızlıq nisbətinin artması ilə Qərb ölkələrini necə gələcək gözlədiyi ciddi maraq doğurur.

SİA mövzu ilə bağlı araşdırma edərək ekspert, hüquqşünas və psixoloqların fikirlərini öyrənib.

**Yazıçı kulturoloq, analitik-ekspert Aydın Xan Əbilov:** "Postpandemiya və postmüharibə dövründə, xüsusən də dünyanın problemli zamanında insanların özünü qoruma insidenti işə düşür və bu insident bir çox tarixi mərhələlərdə olduğu kimi indinin özündə də yeni evlilik və toyların baş tutmasına imkan vermir. Problemli zaman dedikdə iqtisadi-sosial vəziyyətin ağırlığı, ərzaq qıtlığı, ekoloji problemlərin kəskinləşməsi və iqlimin dəyişməsi nəzərdə tutulur.

Gənclər daha maksimalistdir və düşünürlər ki, əgər evim yoxdursa, iqtisadi-sosial vəziyyətim ağırdırsa, yüksək məvacibli işə sahib deyiləmsə kiminləsə ailə qurub hansısa bir qızın bədbəxt olmasına səbəb ola bilmərəm.

Ona görə də gənclərin, xüsusilə oğlanların evlənməsi məsələsində ciddi problemlər yaşanır. Mən, illərdir ki, bu məsələ ilə bağlı öz "SOS" siqnalımı hər yerə çatdırırdım. Çünki Azərbaycanda qızların sayı ciddi şəkildə azalırdı və bu da istər-istəməz kişilərin ailə qurması üçün qız seçmək imkanını məhdudlaşdırırdı.

Digər tərəfdən, dünyanın ən sivil və inkişaf etmiş ölkələrində gənclər 30 yaşdan sonra, artıq müəyyən iqtisadi bazası olan, ailəni saxlamaq üçün müəyyən vəsait əldə etdikdən sonra evlənməyə can atırlar. Bu ən çox inkişaf etmiş ölkələrdən olan ABŞ-da, Yaponiyada, Cənubi Koreyada və Türkiyədə də belədir. Biz də yavaş-yavaş bu normal sistemə keçirik.

25 yaşdan aşağı evlənmək və uşaq dünyaya gətirmək dünyada normal qəbul edilmir. Gənclər yetkinləşməli, intellektuallaşmalı, təhsil və müəyyən həyat bilgiləri əldə etməlidir. Daha sonra bu bilgilər ata vasitəsilə anaya və anadan da uşağa ötürülür. Bu baxımdan da gənclərin gec evlənməsi və toyların azalması normaldır.

Əlbəttə, bunun digər tərəfləri də var: gənclər sosial cəhətdən özlərini müdafiəsiz hiss edirlər, boşanmaların sayının artması, qadın hüquqlarının liberal və hətta radikalcasına inkişaf etməsi, qızların seçim imkanı olduğuna görə adi bir sözdən də inciyib boşanmaya gedirlər.

Düşünürəm ki, Azərbaycanda gənclərin ailə qurması və ailə institutu ilə bağlı dövlət proqramının qəbul edilməsinə ehtiyac var. Bizxim kimi neft ölkəsi olan Ərəb ölkələrinə baxanda yerli azərbaycanlılar evlənən zaman imtiyazlar verilməlidir. Gənc ailə evləndikdə ona ən azı çox az faizlə ipoteka krediti və s. vermək olar. Bu onları boşanmadan da çəkindirər.

Toylara yüz minlərlə pul xərcləmək lazım deyil. Ora xərclənən pulun bir hissəsinə gənc ailələrə ipoteka ilə ev almaq olar. Evdə əlavə söz-söhbət olmaması, boşanmaların baş verməməsi üçün valideynlər çalışmalıdır ki, gənclərin ayrıca evi olsun. Mediada olan şiddət və boşanma halları da gənclərin evlənməsinə ciddi təsir edir.

Evlilik məsələsi yalnız valideynlər və nəsillər arasında razılaşdırılmamalıdır. Gənclər özləri də ortaq qərara gəlməlidir. Həm oğlan, həm də qız eyni hüquqla evlənmək şansı əldə etməlidir. Bizdə evlənmək dedikdə ağıllara ancaq oğlanın qızı bəyənməsi gəlir. Amma hansısa bir qızın bir oğlanı bəyənən, ata-anasına "mən bu oğlanla evlənmək istəyirəm" dediyi zaman qəribçiliyə salınır. Düzdür, yavaş-yavaş bu problem aradan qalxır, amma sürətlə bunu keçməliyik. Evlənmək yalnız kişinin haqqı yox, həm də qadınların haqqıdır.

Digər tərəfdən qadınlar da kişilərin haqqını qəbul etməlidir. Artıq ailə başçısı hüququ məhv edilib. Heç olmasa, ailəni bərabərhüquqlu idarə etmək lazımdır. Yoxsa gənclərimiz ümumiyyətlə toy edib evlənməyəcəklər.

Günümüzdə böyük bir nəsil yaranıb ki, ümumiyyətlə, toy haqqında düşünmür, "subaylıq sultanlıqdır" deyirlər".

**Psixoloq Fidan Nizamova:** "Gənclərin ailə qurmağa tələsməməsinin bir çox səbəbləri var. Burada mənfi və müsbət düşüncələr mövcuddur. Birinci səbəb maddi məsələ, ən başlıcası da ev məsələsidir. Əvvəllər gənclər qaynana-qaynata ilə birlikdə yaşamağa razı idilərsə, bu günkü gün nə oğlanlar, nə qızlar buna razı olmurlar. Hər kəs özü ayrıca həyat yoldaşı ilə yeni bir həyata başlamaq istəyir. Əslində, bunu mən doğru bir düşüncə tərzi kimi dəyərləndirirəm. Çünki gənclər də fərqinə varır və görür ki, bir çox ailələrin sözsöhbətləri, dağılması, soyuqluq yaranması buradan qaynaqlanır və bu fakta əsaslanaraq ev məsələsini, şəxsi evlərinin olmasını ilk mərhələyə qoyurlar və bu çox doğru addımdır. Birlikdə yaşamaq heç bir halda, nə mehribançılıqla, nə ailəcanlılıqla əlaqəli bir şey deyil.



İkincisi karyera məsələsidir ki, yenə də burada da həm qızlar, həm oğlanlar öncə karyera qurmaq, bir pillə əldə etmək, iş karyerasında daha sonra ailə haqqında düşünürlər. Bu da həm maddiyyata bağlanır ki, insanlar ailəli olanda yaxşı yaşamaq istəyirlər.

Bir də özünü təsdiqləmək kimi fakt var ki, o da son illər birinci yerdə durur. İnsanlar öncə özünü tapmağı, öz missiyasını həyatda tapıb da sonra ailə həyatına başlamağı seçirlər.

Burada psixoloji məqamlar da var ki, gənclər ailə çətinliyinin məsuliyyətinin həm fərqinə varırlar, həm də bir az böyüdürlər. Çünki önlərində çox pis nümunələr var.

Bilirsiniz ki, son illər bir çox insanlar psixologiya ilə maraqlanmağa başlayır, ailənin yalnız evlənməkdən, yalnız uşaqla valideynin münasibətinin yeməkdən, isti geyindirməkdən ibarət olmadığını anlayırlar. Bu onları bir növ qorxudur. Çünki buna heç kəs öncədən hazır deyildi. Gənclər bunun indi-indi fərqinə varır.

Bu gün kiçik yaşlı uşaqlar da valideynləri ilə əvvəlki kimi deyil. Onlar daha çox diqqət, daha çox məsuliyyət tələb edirlər. İş yerləri də əvvəlki kimi deyil. Çətinləşib dəməzdim. Sadəcə hər kəs fərqinə varıb. Valideynliyin də, həyat yoldaşı olmağın da fərqinə varmağa başlayırlar ki, məsələ sadəcə evlənməklə bitmir".

**Vəkil Turan Abdullazadə:** "Düşünürəm ki, gənclərin evlənməməsinin bir sıra obyektiv və subyektiv səbəbləri var. Onlardan bir neçəsinə toxunmaq istəyirəm. Birinci səbəb kimi ölkədə sosial rifah səviyyəsinin aşağı olmasını göstərə bilərik. Mənzillərin qiymətinin ortaq aylıq əmək haqqına münasibətdə katastrofik dərəcədə yuxarı olması, işsizlik, toy xərclərinin ciddi maliyyə yükümlülüyü yaratması, sosial təminatların yetərli olmaması toyların azalmasının əsas səbəblərindən biridir.



İkinci səbəb kimi mədəni-mental dəyərlərin, əxlaq etalonların gün keçdikcə dəyişməsi və şaxələnməsi uyğun namizədin tapılmasını çətinləşdirir və beləcə gənclər özlərinə, ailələrinə uyğun şəxsi tapmaqda kifayət qədər çətinlik çəkməyə başlayırlar. Bir sözlə getdikcə çağdaşlığa, müasirliyə can atan təbəqə ilə keçmişin qalıqları, köhnə adətlərlə yaşayanlar arasında kəskin əxlaqi uçurum yaranır. Yəni, sosial qrupların mədəniyyət ölçüləri arasında fərqlər evliliyi çətinləşdirən amillərdən biridir.

Maddi vəziyyətin pis olması, qarşılıqlı anlaşmazlıq, şiddətli keçimsizlik, ər-arvadın valideynlərinin müdaxiləsi və xəyanət faktorlarını boşanmaların əsas səbəbləri arasında göstərə bilərik. Bizə müraciətlər xəyanət, aldatma, ailəsinə və uşaqlarına baxılmaması səbəbindən dolayı daha çox qadınlar tərəfindən olunur. Yəni, kişilərə nisbətən daha çox qadınlar boşanma üçün müraciət edirlər. Lakin son dövrlər də kişilərin müraciətlərində də artım müşahidə olunur".

***A.Vəli***

# Azərbaycanda dinlərarası dözümlülük və tolerantlıq münasibətləri dünyaya örnəkdir

**Azərbaycan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan, milli-mənəvi dəyərlərinə sadiq dövlətdir. Bu baxımdan, Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir. Bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra edir və qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayırlar.Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq naminə öz mədəniyyət mərkəzlərini yaratdılar. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda onlarla milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir.**



Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar.

## Azsaylı xalqların folklorunun, mədəniyyətinin təbliği üçün geniş imkanlar yaradılıb

Azərbaycanda yaşayan milli azlıqların folklorunun, mədəniyyətinin geniş təbliği üçün bədii özfəaliyyət kollektivlərinin repertuarının milli zəmində inkişafı üçün tədbirlər həyata keçirilir. Elə xalq kollektivləri var ki, onlar nəinki respublikamızda, eyni zamanda, bir çox xarici ölkələrdə də məşhurdurlar. Saatlının "Adıgün" - Axıska türkləri, Cəlilabadın "Ruçeyok" - rus, Qaxın "Şividkatsa" - gürcü, Zaqatalanın "Ceyranım" - saxur, Qubanın tat, yəhudi, Qusarın "Trillo", "Şahnabat", "Mel", "Qayıbulaq", "Şahdağ", "Dustaval" və "Melodiya" - ləzgi, Laçının kürd, Balakənin "Xoylo" - avar, Lənkəranın "Şənlik", "Bacılar" folklor mahnı və rəqs, Masallı rayonu "Halay", Lerik rayonunun "Laqutto", Astaranın "Sevinc" - talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin - malakan, Bakı şəhərindəki "Gözəlim" tatar bədii özfəaliyyət kollektivləri bu qəbildəndir. Ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz böyük töhfəsini verir. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli ilə yaradılıb. Müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu.

Bu gün Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi kurs Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir"- deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Bütün bunlar dini və mənəvi dəyərlərə, xalqımızın min illərdirdir mövcud olan adət-ənənələrinin daha da inkişafına dövlətimizin dəstəyidir.

## "Xarıbülbül" festivalı Azərbaycanın multikultural ənənələrinə sadiqliyindən dünyaya mesaj oldu

44 günlük Vətən müharibəsi ilə işğaldan azad edilən ərazilərdə geniş tikinti və quruculuq işlərinin aparılması ilə yanaşı bu ərazilərdə erməni vandallarının dağıtdığı milli irisi yenidən bərpa edərək, inkişaf etdirilməsinə xüsusi önəmin verilməsidir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalının Şuşanın azadlığa qovuşmasından dərhal sonra, eyni zamanda 2022-ci ilin mayında yenidən təşkil olunaraq yüksək səviyyədə keçirilməsi Azərbaycanın multikultural ənənələrinə sadiq qaldığını bir daha dünyaya nümayişi etdirdi. Festivalda ölkəmizdə yaşayan ayrı-ayrı xalqların yaradıcılıq qruplarının bir-birindən maraqlı çıxışları bütövlükdə festivalın rəngarəngliyini daha da artırdı. Bu bir faktdır ki, Azərbaycandakı bütün xalqların təmsilçiləri 44 günlük Vətən müharibəsində misilsiz fədakarlıqlar göstərdilər və Şuşada keçirilən festivalda onların iştirakı böyük sevincə səbəb oldu. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev festival çıxışında demişdir: "Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır".. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq, hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırmış oldular. Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur. Dini maarifləndirmə işini Komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də televiziya proqramları vasitəsilə də aparan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında dini radikalizmin, xurafatın törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha aydın şəkildə çatdırmaq, həmçinin, bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır" və digər sənədli filmlər çəkilərək geniş ictimaiyyətə təqdim edilib. Komitənin aidiyyəti qurumlarla birgə təşkilatçılığı ilə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" və s. mövzularında beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirib.

Görülən işlərə və əldə olunan müsbət nəticələrə əsasən, əminliklə deyə bilərik ki, Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Ölkəmizdə heç zaman dini və ya irqi ayrı-seçkilik olmayıb və təbii ki, nə qədər xalqımızın xilaskarı, dövlətimizin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti və bu siyasəti uğurla davam etdirən Azərbaycan xalqı var, etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olacaq və bununlada Azərbaycanın bəşəriyyətin ən azad və demokratik dövləti olduğu nümayiş etdiriləcək.

***İLHAM ƏLİYEV***

***Yazı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Vicdan azadlığı və media" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur***

# “Armenianreport” Nikol Paşinyanın kadr siyasətini hədəfə aldı

## "Mühüm vəzifələrdə təsadüfi adamlar oturublar"

ŞƏRH

**“Təəssüf ki, Nikol Paşinyan hökumət başçısı olması ilə yüksək vəzifələrə təyin etdiyi kadr seçimi məsələsini çox pis bilir. Və bu, ilk növbədə onun şəxsi reytinqinə güclü təsir edir”. SİA xəbər verir ki, bununla bağlı armenianreport saytında mövzu ilə bağlı yazılan məqalədə qeyd olunur.**

Məqalənin müəllifi Tevos Arşakyan misal gətirərək hazırkı vaxta qədər Paşinyanın təyin etdiyi uğursuz kadrlarını sadalayır. SİTAT: ”Məsələn, götürək bizim vəziyyətdə ən mühüm idarəni - Müdafiə nazirliyini. 2018-ci ildə mənim söhbət etdiyim bir çox zabit kadrları Paşinyanın Tonoyanı müdafiə naziri vəzifəsinə təyin etməsindən şok keçirdiklərini bildiriblər. Kim olursa-olsun, amma David Edqardoviçin müdafiə naziri təyin olunması ümumiyyətlə ağıla sığan məsələ deyildi, özü də Ermənistanın Azərbaycan və Türkiyə ilə həll olunmamış problemləri qala-qala. Peşəkar hərbçilərin təlaşları əbəs deyildi - onun vaxtında orduda müdafiə nazirliyinin əvvəlki rəhbərliyi tərəfindən qalmış korrupsiya, dedovşina və kriminal qaydalar davam edirdi. Və əlbəttə ki, bu cür müdafiə naziri ilə Ermənistanın Azərbaycanla müharibədə uduzmasından təəccüb etməyə dəyməz. Paşinyan çox gec anladı ki, Tonoyan kimdir. Ona görə də istintaq altında olan eks-müdafiə nazirinə görə təəssüf hissi keçirmir”.

Müəllif qeyd edir ki, Tonoyandan sonra təyin edilən müdafiə nazirləri də uğursuz oldular - Arutyunyan, Karapetyan və Papikyan daha böyük uğursuzdurlar. SİTAT: ”Nəticədə bizim ordu zəifləməyə davam edir, azərbaycanlılar isə daha çox üstümüzə gəlirlər. Eyni ilə kədərli olay Baş qərargah rəisləri ilə də bağlıdır. Siyasətə başları qarışan generallar hər şey haqqında düşünürlər, bircə ordudan başqa”.

Məqalə müəllifi Arşakyan digər kadrların uğursuzluqları barədə də söhbət açıb. SİTAT: ”Milli Təhlükəsizlik Xidməti ilə də hər şey aydın və kədərlidir. Vanetsyan, Kərəmyan, Ambarsumyan, Abazyan xüsusi xidmət rəhbərləri kreslosunda özlərini çox uğursuz nümayiş etdirdilər. Vanetsyan ümumiyyətlə öz danışıqlarını Paşinyanın rəqiblərinə eşitdirməyə imkan yaratmaqla böyük səhvə yol verdi, özü də Rusiya Federasiyasının xüsusi xidmət qurumlarının yardımı ilə. Belə səhvlərə görə istənilən sivil ölkədəki xüsusi xidmət orqanlarının rəhbərləri dərhal öz vəzifələrindən atılırlar, bizdə isə Vanetsyan Paşinyanla söyüşüb müxalifətə keçənə qədər öz vəzifəsində qaldı. Hansı ki, orada da heç bir gözəgörünən uğura nail ola bilmədi.

Kərəmyandan danışmaq isə ümumiyyətlə utancvericidir - bu gənc adam uzağı MTX-nin ya da polisin operativ əməkdaşı kimi işləyə bilərdi. MTX-nin son iki rəhbərləri ölkəmizin təhlükəsizliyi və müdafiəsində gördükləri işləri ilə bağlı qürrələnə bilməzlər”.

Armenianreportun analitiki Paşinyanın daha bir kadr təyin etmə uğursuzluğuna toxunub. SİTAT: ”Paşinyanın daniyalı erməni Tatevik Revezyanı mülki aviasiya komitəsinə təyin etməsi də bu xüsusdandır. Gənc qız ona etimad olunmuş idarənin işini yüksəltməsi yerinə oranı rekord vaxtlarda məhv etməyə nail oldu, hansı ki, həmin müddət ərzində o ərə gedə və uşaq doğa bilərdi...”

”Lilit Makunts isə heç bir diplomatiya işinə bələd olmadığı halda ABŞ-a səfir təyin olundu, nədir ki, o ingilis dilini bilir və Paşinyanlar ailəsi ilə dostluq edir. O, Vaşinqtonla işləri iflasa uğratdığı kimi Amerikadakı erməni təşkilatları ilə də münasibətləri korladı. Nəticədə amerikalıların ağıllarını türklər və azərbaycanlılar əldə edirlər, özü də yəhudilərin dəstəyi ilə”, deyə erməni analitiki iddia edir.



Tevos Arşakyan Paşinyanın kadr siyasətindəki uğursuzluqları ilə bağlı daha sonra yazır ki, ölkədə kadr bankı ilə aparılan işlər də nəticəsizdir. Bunun səbəbi olaraq yüksək peşəkarlıq klasifikasiyalarına və təşkilatçılıq ənənələrinə malik olan erməni vətəndaşları işsiz qalır, xarici ölkələrə mühacirət etməyə məcbur olurlar. SİTAT: ”Xaricdə isə onlar öz bacarıqlarını Ermənistan üçün deyil, yeni vətənləri üçün sərf edirlər. Mühüm vəzifələrdə isə bizdə təsadüfi adamlar oturublar. Onların yeganə xidmətləri Paşinyana sədaqətli olmalarıdır”.

***Rövşən RƏSULOV***

# Deyirlər,.. gələn il ”yaxşı gələcək..?”



**Deməli,bu yaxınlarda Ermənistan hökuməti 2023-2025-ci illər üçün dövlət ortamüddətli xərcləri proqramını təsdiqləyib. Əslində, bu gözəl proqramdır. Erməni hökunət rəsmilərinin təbirincə desək...2022-2026-cı illər üçün yenidən işlənmiş borcun azaldılması proqramı.**

Bunu erməni baş nazir Nikol Paşinyan da bildirib. Onun dediyinə görə, guya bu proqram dövlət büdcəsinin xərclərinin və gəlirlərinin əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutur.

Bunun tərifini deyib, sonradan ölkədəki pensiyaların artırılmasından danışan Nikol Paşinyan erməniləri əmin edərək bəyan edib ki, bu bizim sonrakı fəaliyyət proqramımızda da yazılıb. Yəni 2023-cü il yanvarın 1-dən pensiyalar da artırılacaq. Hələ bundan əlavə, əməkhaqlarında da artım olacaq. Belə ki, minimum əmək haqqının 68 min dramdan 75 min drama yüksəldilməsi nəzərdə tutulur. Təbii ki, bütün bunlar çox yaxşı. Amma, görən, bu bəzi erməniləri qane edirmi?

Məsələn, onlar, yəni, dediyim kimi, bəzi ermənilər pensiyaların nə qədər qaldırılacağı barədə məlumatsız olduqlarına görə, onun üstündən sükutla keçsələr də, amma nə vaxtsa artırılacaq əmək haqqlarına irad bildirməkdən özlərini saxlaya bilmirlər. Bilirsiniz iradları nədir? Deyirlər ki, indiki dövrdə əmək haqqına artırılacaq 7 min dram guya çox azdır.

Səbəb də göstərib deyirlər ki, ötən il rəsmi məlumata görə, Ermənistanda minimum istehlak səbətinin həcmi minimum əmək haqqını ötüb. Yəni onda minimum əmək haqqı 68 min dram idisə, 2021-ci ildə istehlak səbəti 70 min dram olub.

Belə ki, erməni ekspertlərin fikrincə, bu gün bu boşluq daha da təsiredici olub. Yəni səbətin qiyməti 76 min drama qalxıb. Buna səbəb təbii ki inflyasiyadır. Yəni artan inflyasiya minimum əmək haqqı da daxil olmaqla hər şeyi yeyir.

...Ona görə də, ökədə minimum əməkhaqqı ən azı 100 min drama qədər artırılmalıdır.

Amma Paşinyan yox, onun səlahiyyətliləri and-aman edib deyirlər ki, ölkənin bu günkü maliyyə imkanları ilə bunu etmək qeyri mümkündür. Yəni bu mümkün deyil!

Deyim ki, dediyim o bəzi ermənilərin də cavabları elə bil ovuclarının içindədir. Onlar da deyirlər ki, necə olur, Nikol hökuməti ölkənin polisinə, Milli Təhlükəsizlik Xidmətinə əməkhaqqı üçün milyonlar ayırır, amma sadə ermənilərə gələndə maliyyə imkanı olmur?



**...bəzi etmənilər sosial müdafiənin heç vaxt hazırkı hökumətin prioritetlər siyahısında olmadığını deyirlər**



Amma deyim ki, Paşinyan hökuməti də, deyəsən, bütün bunlara ”hazırlıqlı” gəlib. Belə ki, onlar ermənilərə bolluca ümid verib, gələn il Ermənistanda guya hər şeyin yaxşı olacağını, yəni daha yaxşı vaxtların gələn il gələcəyini deyirlər.

Qəribədir ki, ermənilər, nədənsə, buna inanmaq istəmirlər. Dediyim o bəzi etmənilər isə sosial müdafiənin heç vaxt hazırkı hökumətin prioritetlər siyahısında olmadığını deyərək , gələn, elə o biri il də nəyinsə yaxşılığa doğru dəyişəcəyinə inanmırlar.

***Ağasəf Babayev***

# Azərbaycanın strateji iqtisadi inkişaf proqramı: Tənəzzüldən tərəqqiyə aparan yol

**1993-2003-cü illərdə Heydər Əliyevin hazırladığı və həyata keçirdiyi iqtisadi siyasət Azərbaycanı dünyada ən sürətlə inkişaf edən dövlətə çevirdi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

Sovet İttifaqının parçalanması və respublikaların İttifaqdan ayrılaraq müstəqil yaşamağa başlamasından sonra iqtisadi əlaqələrin kəsilməsi, dövlət planlaşdırması və idarə edilməsi ləğv edildiyindən, xarici bazara sərbəst çıxış olmadığından xammal və texnologiyalar əldə edə bilməyən zavod-fabriklər sıradan çıxdı, təsərrüfat böhrana düşdü. Sosialist iqtisadi sistemindən kapitalizmə keçid prosesi özü ilə çoxsaylı problemlər gətirdi. Yaranmış vəziyyət təcili tədbirlər görülməsini- iqtisadiyyatda dönüş yaradılmasını tələb edirdi. Lakin 90-cı illərin əvvəllərində respublika hokuməti bu işin öhdəsindən gələ bilmədi. Vəziyyət yalnız 93-cü ilin ortalarından- ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra dəyişməyə başladı.

### Strateji iqtisadi islahatların bünövrəsi necə qoyuldu?

Ümummilli liderin öz qarşısına qoyduğu ən vacib vəzifə tamamilə dağılmış iqtisadiyyatın bərpa edilməsi və inkişafı idi. Heydər Əliyev yaranmış vəziyyəti və perspektivi belə izah etmişdi: "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

1993-cü ilin yarısından başlayaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafına mahiyyətcə yeni mərhələnin təməli qoyuldu.

Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

İqtisadi islahatların mühüm istiqaməti olan özəlləşdirmə prosesi uğurla həyata keçirildi. Özəlləşdirmə prosesi başlayandan 2003-cü il yanvarın 1-dək ümumi dəyəri 550 milyard manata yaxın olan 37 minədək kiçik müəssisə və obyekt, o cümlədən 711 sənaye, 120 kənd təsərrüfatı müəssisəsi, 351 tikinti təşkilatı, 2911 ticarət, 9641 məişət xidməti, 576 yanacaqdoldurma məntəqəsi, 16,5 min nəqliyyat müəssisəsi və nəqliyyat vasitələri, 92 kommunal təsərrüfatı obyekti və 5,2 min digər obyekt və avadanlıq özəlləşdirilmişdi. 2003-cü ilin əvvəlinədək nizamnamə kapitalı 5331,3 milyard manat olan 1486 dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdi. Ölkədə azad sahibkarlığın inkişafına yaradılan şərait və özəl sektora verilən dövlət



dəstəyi öz bəhrəsini verməyə başlamışdı.

Böyük neft strategiyası ölkə iqtisadiyyatının mühərrikinə çevrildi

Heydər Əliyev başa düşürdü ki, ölkə iqtisadiyyatını dirçəltmək, onu inkişafını təmin etmək üçün qısa müddətdə böyük gəlirlər vəd edən potensialdan- neft ehtiyatlarından yararlanmaq lazımdır. Bunun üçün də beynəlxalq neft şirkətlərinin ölkəyə investisiya qoymasını, yeni texnologiyalar gətirməsinin təmin etmək lazım idi. Buna görə də, qısa müddətdə bütün bunları özndə birləşdirən neft strategiyası hazırlandı.

1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ağır müharibədən itisadiyyatı dağılmış halda çıxan gənc dövlətimizin çətin vaxtında imzalandı. Heydər Əliyevin belə bir gərgin şəraitdə dünyanın 7 inkişaf etmiş dövlətini təmsil edən 11 neft şirkəti ilə "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu.

Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə ölkəmizin beynəlxalq mövqeyini gücləndirməklə yanaşı, iqtisadi dirçəlişdə müstəsna rol oynadı. 1997-ci ilin noyabrında kontrakt iştirakçılarından ibarət Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti "Çıraq" yatağının ilk quyusundan neftin fontan vurmasına nail oldu.

Neft istehsalı sürətlə artırdı. Artıq 2002-ci ildə Azərbaycanda 15,3 milyon ton neft hasil edilərək son 24 ildə ən yüksək göstərici əldə olunmuşdu. Lakin nefti istehsal etmək əsas deyil, onu sərbəst və sərfəli yolla dünya bazarına çıxarmaq da lazım idi.

Layihə çərçivəsində ilkin neftin hasil olunmağa başladığı dövrdə onu Bakı-Novorossiysk kəməri vasitəsiylə nəqli həyata keçirilirdisə də, artıq tezliklə neft hasilatının 50 milyon ton və ondan daha artıq səviyyəyə çatdırılması planlaşdırıldığından alternativ neft kəməri layihələri tələb olunurdu. 1999-cu ilin noyabrında ATƏT-in İstanbul zirvə toplantısının sammiti çərçivəsində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri ABŞ-ın dövlət başçısının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşa edilməsinə dair hökumətlərarası saziş imzaladılar.

Bu kəmərin çəkilməsi yolunda yaradılan çoxsaylı əngəllərə baxmayaraq Azərbaycan prezidenti Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində maneələrin hamısı dəf edilərək bu layihənin gerçəkləşməsi reallığa çevrildi. 2003-cü ildə kəmərin tikintisə başlanıldı. Kəmər istifadəyə veriləndən sonra Azərbaycan öz neftini iri həcmdə, birbaşa və az xərclə dünya bazarına çıxara bildi və böyük gəlirlər əldə etdi.

### Aqrar sektorda dirçəlmənin başlanması və inkişafa keçid

Respublikada iqtisadi bazanın olmasına baxmayaraq, aparılan səhv iqtisadi siyasət bütün sahələrdə olduğu kimi aqrar bölmədə də böhranı daha da dərinləşdirmişdi. 1990-95-ci illərdə respublikada kənd təsərrüfatı məhsullarının istehsalı bir çox əsas ərzaq məhsulları üzrə hətta 2-3 dəfə aşağı düşmüşdü.

Neft sektorunun inkişafı ilə yanaşı Heydər Əliyev respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq 872 min kəndli ailəsinə 1 milyon 373 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min mal-qara tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar bölündü. 1995-2004-cü illərdə aparılan aqrar islahatlar nəticəsində böyük işlər görüldü və hazırki dinamik inkişafın əsası qoyuldu. Burda əsas amillər iqisadi siyasətin əsas konturlarının dəqiq müəyyən edulməsi və islahatların düzgün aparılması idi.

Heydər Əliyevin 22 mart 1999-cu il tarixli fərmanı ilə Nazirlər Kabineti kənd təsərrüfatı məhsulu istehsalçılarına dövlət büdcəsi hesabına güzəştli pərakəndə satış qiyməti ilə neft məhsullarının satılması barədə qərar qəbul etdi. Milli Məclis isə, həmin fərmana əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olunmaqla digər vergilərdən azad edilməsi barədə qanun qəbul etdi.

Heydər Əliyevin 10 il ərazində həyata keçirdiyi aqrar islahatlar öz nəticəsini verdi. 90-ci illərdə əsas kənd təsərrüfatı məhsullarını müxtəlif xarici ölkələrdən alan Azərbaycan 2000-ci ildən sonra əksinə, xaricə məhsul ixrac edirdi.

Bu da sözsüz ki, məhsul istehsalının intensiv artımı nəticəsində mümkün oldu. Təkcə 2002-ci ildə kəndli-fermer təsərrüfatları, digər özəl aqrar qurumlar tərəfindən 2,2 mln. ton taxıl, 973 min ton tərəvəz, 330 min ton bostan, 694 min ton kartof, 511 min ton meyvə, 80 min ton tütün, 1440 ton çay yarpağı, 223 min ton ət (diri çəkidə), 1,2 nilyon ton süd, 561 milyon ədəd yumuta, 11,8 min ton yun, 148,3 ton barama istehsal edilmişdi. 2001-ci ilə nisbətən 2002-ci ildə məhsul istehsalı 6,4 faiz çox idi.

### Sürətli və effektiv iqtisadi inkişaf modelinin memarı

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələrkən respublikada ümumi daxili məhsul istehsalında orta hesabla 20-23 faiz geriləmə baş verirdi. Lakin respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı və beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu.

Statistikaya nəzər salsaq görərik ki, 1996-cı ildə ümumi daxili məhsul istehsalı 1,3 faiz artıb, 1997-ci ildə həmin rəqəm 5,8 faiz, 1998-ci ildə isə 10 faiz təşkil edib. Məqsədyönlü şəkildə həyata keçirilən səmərəli tədbirlər nəticəsində ölkədə ümumi daxili məhsul son 10 ildə 21,2 faiz artaraq 2002-ci ildə 7 milyard dollara çatdı ki, onun da 59,8 faizi istehsal, 32,4 faizi xidmət sahələrində baş vemişdi.

1995-ci ildə sənaye məhsullarının buraxılışında azalma 21,4 faiz, 1996-cı ildə 6,7 faiz olmuşdusa, artıq 1997-ci ildə bu sahədə 0,3 faiz artım müşahidə edildi. Bu sıradan neft emalı, metallurgiya, ağac emalı, şüşə və çini-saxsı məhsullar istehsalında artım daha yüksək oldu. 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artdı.

Beləliklə, ümummilli liderin qısa müddətdə hazırlayıb həyata keçirdiyi neft strategiyası ölkəyə investisiya axınını təmin etdi, gəlirləri artırdı. Bu gəlirlərin digər sahələrə yönəldilməsi ilə ümumi iqtisadiyyatda inkişaf başladı. Nəticədə ümumi daxili məhsul və dövlət büdcəsinin gəlirləri tədricən artdı. ÜDM-in artımı özünü xarici ticarətdə daha aydın biruzə verirdi. Əgər 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənmiş və 128 xarici dövlətlə idxal-ixrac əməliyyatları aparılmışdı. 2002-ci ildə ixracın həcmi ümumi dövriyyənin 56,5 faizini təşkil edir və idxalı 30 faiz üstələyirdi.

Beləliklə, tam əminliklə demək olar ki, Heydər Əliyevin böyük zəhməti, uzaqgörən siyasəti nəticəsində 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoydu.

Preizdent İlham Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra bu iqtisadi kurs davam etdirildi. Hazırda Azərbaycan 70 milyardlıq ümumi daxili məhsulu, 25 milyardlıq dövlət büdcəsi, 55 milyardlıq valyuta ehtiyatları ilə regionun ən qüdrətli dövlətinə çevrilib. Son 10 ildə iqtisadi inkişaf tempinə görə dünyada ilk yerdə olan Azərbaycan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və prezident İlham Əliyevin uğurla davam etdirdiyi dünyada analoqu olmayan iqtisadi inkişaf modelinin əyani nümunəsidir.

**Elçin**

Səs

6 iyul
2022-ci il

# Uşaqlara cinsi tərbiyə nə zaman verilməlidir?

**“Valideynlər uşaqlarına kiçik yaşlarından şəxsi sərhədlərini qorumağı öyrətməlidirlər. Cinsi tərbiyəyə gəldikdə isə uşağa izah edilməlidir ki, böyüklər sizinlə çox fiziki təmasda ola bilməz, cinsi mövzular haqqında danışa bilməz, bunu ancaq biz valideynlər deyə bilərik”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla Əli deyib.**



Onun sözlərinə görə, valideynlər uşaqları çox müşahidə etməlidir: ”Bura oynadıqları oyunlar, çəkdikləri rəsmlər daxildir. Adətən təcavüzə uğrayan uşaq çəkdiyi rəsmlərdə genital bölgəni vurğulayır və daha böyük yaşlarda-yeniyetməlik dönəmində cinsi mövzularda daha çox danışır, adətən, öz başına gələn hadisəni başqasının başına gələn hadisə kimi izah edir, fikir almaq istəyirlər”.

Psixoloq sözlərinə belə davam edib: ”Təcavüz hər yaş dönəmində özünü fərqli şəkildə göstərir. 3-6 yaş dönəmində yuxarıda qeyd etdiyim kimi, oyun və çəkdiyi rəsmlərlə, yeniyetməlik dönəmində isə özünə qapanma, aqressivlik, iyrənmə, tez-tez yuyunma istəyi, toxunuşa sərt reaksiya, iştahın azalması və ya heç olmaması, qusma, əks cinsə nifrət hissi ilə özünü birüzə verir”.

***Ayşən Vəli***

# Azərbaycan neftinin qiyməti 128 dolları ötüb



Dünya bazarında ”Azeri Light” markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 3,5 ABŞ dolları, yaxud 2,79 % artaraq 128,8 ABŞ dolları təşkil edib. Bu barədə SİA-ya neft bazarındakı mənbə məlumat verib. Hərraclarda ”Brent” markalı neftin sentyabr fyuçersləri 113,5 ABŞ dollardan satılıb. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 85 ABŞ dolları götürülüb.




# Ronaldo təyyarəsini 20 milyon funt sterlinqə satır

**Portuqaliya millisinin və ”Mançester Yunayted”in hücumçusu Kriştiano Ronaldo şəxsi təyyarəsini - ”Gulfstream G200”ü satışa çıxarmaq qərarına gəlib. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, 37 yaşlı oyunçu onun üçün 20 milyon funt sterlinq istəyir.**

Kriştiano bu təyyarəni 2015-ci ildə 20 milyon funt sterlinq ödəyərək alıb. Təyyarənin maksimal sürəti saatda 560 mildir.Bu təyyarədə Ronaldo tez-tez ailəsi ilə səfərlərə çıxır, həm də onu saatı 5 min funt sterlinqdən 8,5 min lirəyə kimi qiymətə icarəyə verirdi. Lüks təyyarə 2011-ci ildə istehsal bitənə qədər cəmi 250 model istehsal edilib. Təyyarənin içərisində faks, telefon, elektrik soba, mikrodalğalı soba, soyuducu, əyləncə zonası, dəbdəbəli yemək otağı və divan sahəsi də var.

Qeyd olunur ki, Ronaldo sərnişinlər üçün daha çox oturacaq olan model almaq istədiyi üçün təyyarəni satmaq qərarına gəlib.

# Metroda qəribə hadisə baş verib




”İçərişəhər-Həzi Aslanov” marşrutu üzrə hərəkət edən qatar ”Gənclik” stansiyasında olarkən vaqonda sərnişinlərdən birinin elektron cihazı tüstülənib. SİA xəbər verir ki, sərnişinlər qatardan dərhal düşürülüb.

Qatar maşinisti və polis əməkdaşı vaqona baxış keçiriblər. Vaqonda hər hansı bir problem olmayıb. Tüstüləmə yüngül olduğundan baxış müddətində sovrulub və sərnişinlər həmin qatarla yola salınıblar. Nəticədə, 3 dəqiqəlik yubanma olub. Bütün sərnişinlərdən rica edirik, metropolitenin xüsusiyyətləri nəzərə alınaraq, saz vəziyyətdə olmayan mobil cihazlardan istifadə etməsinlər və ümumən metropolitendə elektron cihazlardan istifadə edərkən ehtiyatlı davransınlar.

# “Nar” BMT-nin dayanıqlı inkişaf məqsədlərini dəstəkləyən Qlobal Sazişinə qoşuldu

”Nar” KSM istiqamətində gördüyü işləri yeni mərhələyə qaldıraraq dünyanın sosial məsuliyyətli bizneslərini bir araya toplayan Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinə qoşuldu. ”Nar”ın icraçı direktoru Qunnar Pankenin bildirdiyinə görə, BMT-nin Qlobal Sazişində iştirak etməklə ”Nar” sosial, iqtisadiyyat və insan rifahı üzrə korporativ məsuliyyətini daha da sistemləşdirməyi hədəfləyir. ”Uzun illərdir ki, davamlı inkişaf və məsuliyyət prinsipini rəhbər tutan bir şirkət olaraq BMT Qlobal Sazişinin bir hissəsi olmaqdan qürur duyuruq. Cəmiyyətə faydalı olmaq üçün etdiyimiz KSM layihələr ilə daha yaxşı gələcəyə öncüllük edəcəyimizə inanırıq. Bu sazişə qoşulmağımız da yolumuza sadiqliyin nümunəsidir”, - deyə o qeyd edib.

”Azərbaycan cəmiyyəti getdikcə qlobal davamlılığa ümumi prioritet kimi yanaşır və bu yanaşma cəmiyyətin bütün kəsimlərini - fərdi, ailə, dövlət və müxtəlif ölçülü biznesləri və sənaye müəssisələrini əhatə edir. ”Azerfon” şirkətinin BMT-nin Qlobal Sazişi üzrə öhdəlikləri buna əyani sübutdur. Bunlar hələ qarşıda duran mühüm hədəflər olduğundan, mən əminəm ki, ”Nar”, onun rəhbərliyi və bütün şirkət əməkdaşları Azərbaycanda korporativ davamlılığın nümunəvi şəkildə formalaşması və təşviqində aparıcı mövqe tutacaq”, - deyə BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov bildirib.

Qeyd edək ki, BMT Qlobal Sazişinin 10 prinsipini KSM strategiyasına, əmək siyasətinə və müxtəlif prosedurlarına tətbiq etməklə bu sazişə qoşulan şirkətlər cəmiyyət və planet qarşısında məsuliyyətlərini qoruyurlar. ”Nar” üçün Qlobal Sazişin dayanıqlı inkişaf prinsiplərinin ən önəmli maddələrindən olan insan hüquqları, əmək və ətraf mühit sahəsində öhdəliyi xüsusi əhəmiyyət kəsb edir. BMT Qlobal Sazişində Azərbaycanı təmsil edən ilk telekommunikasiya şirkəti olaraq, ”Nar” təhsilin inkişafına dəstək, işçilər üçün rahat əmək şəraitinin yaradılması, gender bərabərliyi istiqamətində layihələrə dəstək verilməsinə fokuslanır.

nar
WE SUPPORT
UN GLOBAL COMPACT

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3220**